# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 46 (3462) Cümə axşamı / 1-7 dekabr 2022-ci il Qiyməti 40 qəpik


# Bakıya meydan oxuyan “sülhməramlılar”

*Xəbər verildiyi kimi, Azərbaycan Müdafiə Nazirliyi Rusiya Federasiyasının sülhməramlı kontingentinin yaydığı məlumatlarda Azərbaycan yer adlarının erməni dilində deyilməsi, “Dağlıq Qarabağ ərazisi” ifadəsinin işlənməsi, atəşkəsin Azərbaycan tərəfindən pozulması ilə bağlı yalan məlumatların yayılması ilə bağlı təxribatçı çıxışlara son qoyulması tələbi hələ ki, cavabsız qalır. Regionda müharibə vəziyyətini yenidən alovlandırmaqda maraqlı görünən Rusiya sülhməramlılarının erməni mövqeyi, dəhliz vasitəsilə qeyri-qanuni silahlı birləşmələr üçün daşınan hərbi və “humanitar” yüklər, Laçın dəhlizindən təyinatı üzrə istifadə edilmədiyini ortyaya qoymaqla, hansı zəruri addımlartın atılmasını tələb edir? Rusiya sülhməramlılarını Azərbaycana qarşı danışdıran nədir?*




**■ Politoloq Elxan Şahinoğlu hafta.az-a bildirib ki, Azərbaycan Müdafiə Nazirliyi qısa müddət ərzində neçənci dəfədir ki, Rusiya “sülhməramlı kontingenti”nin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adlarının erməni toponimləri ilə qeyd olunmasından narazılığını bildirir. “Amma ruslar Qarabağ iqtisadi rayonunu “Dağlıq-Qarabağ ərazisi”, Ağdərəni “Mardakert”, Xocavəndi “Martuni, Suqovuşanı “Madagiz” adlandırmaqda davam edirlər.**

Rusiya rəsmiləri, diplomatları və hərbçiləri İkinci Qarabağ müharibəsindən əvvəl də ərazi bütövlüyümüzə və suvenerliyimizə hörmət etmirdilər, Xankəndini heç vaxt öz adı ilə yazmayıblar. Kreml sahibi Vladimir Putin bircə dəfə hərbçilərinə desə ki, Qarabağla bağlı yazışmalarda və açıqlamalarda Azərbaycan qanunlarına riayət edin, “sülhməramlı kontingenti” şəhər, qəsəbə və kəndlərimizin adlarını olduğu kimi vurğulayar. Bunu etmirlərsə, demək, Kremldən “Azərbaycan qanunlarına hörmət edin” təlimatı almayıblar”. Onun sözlərinə görə, separatçıları Şuşanı atəşə tutmağa Qarabağdakı rusiyalı hərbçilər təşviq ediblər və təlimatı Moskvadan alıblar. Onun sözlərinə görə, təxribatın məqsədi bölgədə Rusiya hərbi missiyasının vaxtının uzadılmasıdır. “Kremlin məntiqinə görə, əgər Qarabağda tərəflər müharibədən sonra da bir-birlərinə atəş açırlarsa, deməli Rusiyanın azərbaycanlılarla ermənilər arasında hakim rolunda çıxış etməsinə hələ uzun müddət ehtiyac olacaq”.

E.Şahinoğlu hesab edir ki, bizim Kremlin “məntiqinə” qarşı arqumentimiz bu olmalıdır ki, sizin “hakimliyiniz” Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasına maneədir, üç ildən sonra bölgəni tərk etməyə hazırlaşın. Ancaq buna qədər erməni separatçılarının tərksilah edilməsi Azərbaycanın haqqıdır”. E.Şahinoğlu qeyd edir ki, erməni siyasətçilər və ekspertlər qabaqdangəlmişlik edərək, Azərbaycan Ordusunun Laçın dəhlizini bağlamağa hazırlaşdığını açıqlayırlar. Onlar son zamanlar Qarabağda gərginliyin və atəş səslərinin artmasını bununla əlaqələndirirlər.

“Bu gizli mövzu deyil, Ermənistanla Qarabağ arasındakı yolun nəzarətə götürülməsi Azərbaycanda əsas müzakirə predmetidir. Rusiya “sülhməramlı kontingenti” də ermənilərlə yenə səs-səsə verərək, “Azərbaycan tərəfdən atəşkəs pozularaq Dağlıq Qarabağ postu atəşə tutulub” açıqlamasını yayıblar. Bu bir neçə sözdən ibarət cümlədə xeyli hüquq pozuntusu var.

“Dağlıq Qarabağ” bölgüsü yoxdur, “separatçıların postu” olmamalıdır, bu, Azərbaycanın ərazi bütövlüyünə ziddir, nəhayət, separatçılar olan yerdə “atəşkəs” ola bilməz. Bütün bunlara görə də sülhə hələ çox var”. Ekspert bütün bunlarla yanaşı hesab edir ki, bu gün söhbət Laçın yolunun bağlanmasından deyil, nəzarətə götürülməsindən, yolun sonunda Azərbaycan gömrük və sərhəd postunun yaradılmasından gedir. “Məqsəd həmin yolda nəzarət postları yaratmaqla Ermənistandan Qarabağa silah, hərbi texnika, minaların daşınmasının, cinayətkarların, o cümlədən Azərbaycan vizası olmayan xarici ölkə vətəndaşların ərazimizə qanunsuz keçidinin qarşısını almaqdır. Zəngəzur dəhlizinin açılmasını gözləmədən Azərbaycan büdcəsi hesabına tikilən və ərazimizdən keçən yolun nəzarətə götürülməsi başlıca vəzifəmiz olmalıdır”.

**■ “Təkamül” partiyasının sədri Teyyub Qənioğlu “Həftə içi”nə bildirib ki, kapitulyasiyaya imza atan Ermənistan, ona vasitəçilik edən Rusiya öhdəliklərini yerinə yetirmir.**

Onun fikrincə, Ermənistanın II Qarabağ müharibəsindən keçən iki il ərzində yenidən revanşist çıxışlar etməsinin arxasında üçtərəfli sazişlə regiona daxil olub öz öhdəliklərini yerinə yetirməyən Rusiya sülhməramlılarının fəliyyətsizliyi və yaxud ermənipərəst fəaliyyəti dayanır.

“Danışıqlar prosesində ermənilər atəşkəsi pozur, rus sülhməramlıları isə regionda Azərbaycan ərazisindəki yaşayış məntəqələrimizin adlarını uydurma erməni toponimləri ilə qeyd edir, yaydıqları məlumatlarda “Dağlıq Qarabağ” ifadəsini işlətməklə ölkəmizin suverenliyinə hörmətsiz və təhdid dili ilə danışırlar.

▸▸ Səh. 2

“

*Bunu etmirlərsə, demək, Kremldən “Azərbaycan qanunlarına hörmət edin” təlimatı almayıblar*

*Əgər bu missiya regionda gərginlik yaratmaqda maraqlıdırsa, erməniləri ölkəmizə ayaq basdığı bütün sərhədlər bağlı saxlanılmalıdır*

*Ermənilər atəşkəsi pozmaqla sülhmərmlıları atəş altında qoymağa çalışır*

*Bu, eyni zamanda Rusiya rəsmisinin fikirlərinə hörmətsiz münasibətdir*

MÜSAHİB

## Ermənilər Qarabağda “Sumqayıt” variantından istifadə edəcək



**Tofiq Zülfüqarov,**
keçmiş xarici işlər naziri

***Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarovla hafta.az üçün budəfəki söhbətimizdə Azərbaycan Müdafiə Nazirliyi ilə Rusiyanın Qarabağdakı “sülhməramlı” kontingentinin komandanlığı arasında son həftələr qızışmaqda olan söz polemikası fonunda bölgədəki durum, “sülhməramlı”larla bundansonrakı davranışın tənzimlənməsi yolları, Laçın yolundakı Ermənistanla dövlət sərhədində Azərbaycan tərəfinin müvafiq postlar qurması, ermənilərlə savaşın bərpası ehtimalı, həmçinin, Rusiyanın Ukraynaya qarşı təcavüzkar savaşının qış mövsümündə gözlənilən gedişi və s. barədə danışdıq.***

*Ukraynada savaş tam yekunlaşmamış kəskin davranışlara yol verməyək*

▸▸ Səh. 3

MÜSAHİB



**Razi Nurullayev,**
Milli Məclisin deputatı,
Milli Cəbhə Partiyasının sədri

■ Azərbaycan da birmənalı olaraq Laçın dəhlizini bağlamalıdır

■ İranın müsəlman kimi deyil, xristian kimi hərəkət etməsi, Paşinyanı Quranın altından keçirməsi, Quranla qarşılaması İslam dininə təhqirdir

■ Rusiya bizə hörmət etməsə, biz də Rusiyaya hörmət etməyə borclu deyilik

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



**Çində COVID-19 tüğyan edir**

GÜNÜN SİTATI



“ *Ermənistan öhdəliklərini yerinə yetirmir, normallaşma prosesinə maneçilik törədir* ”

**Ceyhun Bayramov,**
xarici işlər naziri

KARİKATURA




**Ermənistan sülh imkanını qəfəsə salır**

“

## İran daim Azərbaycana müstəmləkə gözü ilə baxıb

**Hikmət Babaoğlu,**
Milli Məclisin deputatı

Biz artıq postmüharibə dövründə, Fərrux, “Qisas” əməliyyatı təcrübəsini keçmişik.

▸▸ Səh. 3

STATİSTİKA



**■ Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan 143 mln. ABŞ dolları dəyərində qızıl ixrac edib, bu da illik müqayisədə 13,9% azdır.**

2021-ci ilin eyni aylarında qızıl ixracının ümumi dəyəri 166,1 mln. dollar təşkil edib. Bu ilin oktyabr ayında Azərbaycan 14,6 mln. dollarlıq qızıl ixrac edib ki, bu da illik müqayisədə 87,2% çoxdur.




▸▸ Səh. 4

## DTX-nın Naxçıvan əməliyyatı

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib:

Əliyev Pənah Əli oğlu
İbrahimov Eldar Rza oğlu
Quliyev İsgəndər Həsən oğlu
Məmmədhəsənov Rafiq Musa oğlu
Nəsirov Məmməd Yahya oğlu.

***

**Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Vayra Vike-Freyberqa Azərbaycan Respublikasının beynəlxalq müstəvidə əlaqələrinin inkişafına verdiyi töhfəyə görə Prezidentin fəxri diplomu ilə təltif olunub.

***

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərə "Əməkdar jurnalist" fəxri adının və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.**

Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə imzalanan Sərəncama əsasən, aşağıdakı şəxslərə "Əməkdar jurnalist" fəxri adı verilib:

Əliyev İlham Yaylaqalı oğlu
Musayev Alqış Həsən oğlu.

Aşağıdakı şəxslərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib:

Xəlilov Zahid Abdulla oğlu
Şadlinski Vaqif Bilas oğlu
Vəliyev Misirxan İzzət oğlu.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

***

**Prezident İlham Əliyev Cəlilabad rayonunun Abazallı-Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Məmmədrzalı-Məşədilər-Dostallı-Şötüklü-Boyxanlı-Məlikqasımlı və Şiləvəngə-Adnalı-Bədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, on dörd min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Abazallı-Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Məmmədrzalı-Məşədilər-Dostallı-Şötüklü-Boyxanlı-Məlikqasımlı və Şiləvəngə-Adnalı-Bədirli avtomobil yollarının tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğdən 7 milyon manat və 1.26.23-cü yarımbəndində göstərilmiş 10,2 milyon manat olmaqla ümumilikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 17,2 milyon manat ayrılıb. Maliyyə Nazirliyi bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Kərim Vəliyev ABŞ Milli Qvardiya Bürosunun rəisi ilə görüşüb



**Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ Milli Qvardiya Bürosunun rəisi general Daniel Hokanson ilə görüşüb.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən xəbərə görə, tərəflər "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində hərbi əməkdaşlığın cari vəziyyəti və perspektivlərini, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər. Görüşdə Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfiri Xəzər İbrahim də iştirak edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Yeni idarəetmə modelinə keçid

***Bu gün Qarabağ yeni texnologiyalar əsasında yenidən inşa olunur. Bununla paralel işğaldan azad olunmuş ərazilərdə yeni idarəetmə sistemi sınaqdan keçirilir. Prezident İlham Əliyev bu yaxınlarda Bakıda keçirilən "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda xarici ekspertlərin suallarını cavablandırarkən Qarabağda görülən işlərə toxunaraq qeyd edib ki, Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik:***

## Gündəm

"Biz azad edilmiş ərazilərdə ən son texnologiyalardan istifadə edirik. İki il əvvəl, müharibə bitəndən dərhal sonra mən "Qarabağı yenidən quracağıq və yenidənqurmanın yaxşı nümunəsini nümayiş etdirəcəyik" deyəndə eynilə bunu nəzərdə tutmuşdum. İndi bu, həyata keçir. Biz şəhərlərimizi və kəndlərimizi smart texnologiya platformasına əsaslanaraq tikirik və yenidən qururuq. Ağalıda ilk kənd artıq məskunlaşdırılıb. Oraya gedən hər kəs Qarabağın yenidən qurulması modelinin necə olacağını görə bilər. Bu, təkcə 30 il ərzində erməni işğalından əziyyət çəkmiş, layiqli həyat yaşamağa, tam qorunmağa layiq keçmiş məcburi köçkünlər qarşısında bizim mənəvi borcumuzun bir növ nümayişi olmamalıdır, həmçinin biz Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik. Onda biz bəlkə də artıq indi davamlı olaraq texnoloji təcrübəyə, eləcə də inzibati idarəçiliyə keçəcəyik.

Azad edilmiş ərazilərdə bizim ölkənin digər yerlərindən fərqli inzibati strukturlarımız var. Prezidentin xüsusi nümayəndəsi institutu üç ərazidə artıq qurulub və səmərəliliyi sübut olunub. Beləliklə, biz texnoloji inkişaf modelini sınaqdan keçirməklə yanaşı, həm də idarəçilik modelini sınaqdan keçiririk. Ona görə də biz rəqəmsal inkişafa çox diqqətlə və əzmlə yanaşacağıq, xalqımıza uyğun olan ən yaxşı seçimi edəcəyik".

Xatırladaq ki, 2021-ci ilin yanvarın 19-da Prezident işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası prezidentinin xüsusi nümayəndələri haqqında fərman imzalayıb. Fərmana əsasən, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası prezidentinin xüsusi nümayəndəlikləri təsis edilib. Prezidentin xüsusi nümayəndəliklərinə prezident tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa prezidentə tabe olan xüsusi nümayəndələr rəhbərlik edirlər. Fərmana əsasən müəyyən edilib ki, xüsusi nümayəndə prezidentin müəyyən etdiyi ərazi hüdudlarında prezidenti təmsil edən vəzifəli şəxsdir və prezidentin müəyyən etdiyi ərazi hüdudlarında onun müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.



**Azərbaycanın digər ərazilərində nə vaxtdan tətbiq olunacaq?**

> *"İdarəetmə sahəsində islahatların başlıca məqsədi insanların həyat şəraitinin yaxşılaşdırılması və ölkənin inkişaf etdirilməsidir*

Prezidentin ilk xüsusi nümayəndəsi həmin il yanvarın 27-də Şuşa rayonuna təyin edilib. Bu vəzifəni Aydın Kərimov icra etməkdədir. 2021-ci il mayın 24-dən Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində (Ağdam şəhəri daxil olmaqla) prezidentin xüsusi nümayəndəsi olmuş Emin Hüseynov həmin il dekabrın 1-dən Qarabağ iqtisadi rayonunun işğaldan azad edilmiş ərazilərində (Şuşa rayonu istisna olmaqla) prezidentin xüsusi nümayəndəsidir. 2022-ci il mayın 4-də Vahid Hacıyev prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin edilib. Maraqlıdır, görəsən, Qarabağda idarəetmə ilə bağlı təcrübənin Azərbaycanın digər ərazilərində tətbiq olunmasına nə vaxtdan başlanıla bilər?

■ **Məsələni qəzetimizə şərh edən millət vəkili Tahir Rzayev bildirib ki, bu gün ölkəmizdə bütün sahələrdə islahatlar həyata keçirilir:** "Bu islahatlar öz müsbət nəticələrini verməkdədir. Sözsüz ki, bu islahatlar düşünülmüş şəkildə gələcəyə hesablanmış və reallıqları əks etdirən ıslahatlardır. Bu baxımdan Prezidentin xüsusi nümayəndəliyinin yaradılması və 3 nümayəndəliyin işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərməsi, artıq qısa müddətdə onların fəaliyyətinin yaxşı nəticələr verməsi təqdirəlayiq haldır. Əlbəttə ki, bütün bu fəaliyyət ölkə rəhbəri tərəfindən istiqamətləndirilir və onun nəzarəti altındadır. Əgər bu idarəetmə forması tam olaraq öz müsbət nəticələrini verərsə, digər ərazilərdə də həmin idarəetmə üsulunun həyata keçirilməsi mütləq baş verəcəkdir". Millət vəkili xatırladıb ki, hazırda azad olunmuş ərazilərdə geniş quruculuq işləri həyata keçirilməkdədir: "Qarabağda yeni, modern infrastruktur yaradılır. Burada yüksək idarəetmə modeli tətbiq olunur. Prezidentin liderliyilə işğaldan azad edilmiş ərazilərdə qurulan "ağıllı kəndlər" və "ağıllı şəhərlər" Azərbaycanın yüksək kreativ idarəetmə modellərinə açıq olduğunu nümayiş etdirir. Qarabağ, bütövlükdə ölkəmiz faktiki olaraq regionda yeni texnologiyalar mərkəzinə çevrilir. Təbii ki, bununla paralel işğaldan azad edilən ərazilərimizdə yerli idarəetmənin yeni modelinin formalaşdırılması işlərin daha sürətlə aparılmasına imkan verir. Ümumiyyətlə isə idarəetmə sahəsində islahatların həyata keçirilməsinin başlıca məqsədi insanların həyat şəraitinin yaxşılaşdırılması və ölkənin inkişaf etdirilməsidir. Ona görə də bu cür islahatlar səmərəli olduğu təqdirdə, gələcəkdə digər ərazilərimizdə də xüsusi nümayəndəliklərin yaradılması reallığa çevriləcəkdir".

***Sevinc***

# Bakıya meydan oxuyan "sülhməramlılar"

◂ əvvəli 1-ci səhifədə

Əgər bu missiya regionda gərginliyi yaratmaqda maraqlıdırsa, erməniləri ölkəmizə ayaq basdığı bütün sərhədlər bağlı saxlanılmalıdır. Heç şübhəsiz, Zəngəzur dəhlizini açmaqda maraqlı deyilsə və sülhə qarşı təhdid yaradırsa, Laçın dəhlizi dərhal bağlanmalıdır. Əks halda, ermənilərin həyasız davranışları, eləcə də rus sülhməramlılarının onlarla birləşərək Azərbaycana qarşı təhdid dili ilə danışmaları davam edəcək".

■ **Hərbi ekspert Elxan Şıxəliyev bizimlə söhbətində ermənilər tərəfindən atəşkəsin pozulmasının iki istiqamətdə baş verdiyini qeyd edib.**

"Atəşkəs Arazdan Tovuza qədər olan ərazidə Ermənistan silahlı qüvvələri ilə birbaşa təmasda olan şərti sərhədlərdə pozulur. Digər pozuntu isə Qarabağ iqtisadi bölgəsində atəşkəsin pozulmasıdır. Şərti təmas sahəsində atəşkəs Avropa Birliyinin, ATƏT-in 400 nəfərlik mülki missiyanın hazırlayacağı hesabatlara yönəlik olaraq pozulur ki, gələcəkdə Azərbaycana qarşı siyasi sanksiyalarda istifadə edə bilsinlər. Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə atəşkəsin pozulması isə Rusiyanın özünün fəaliyyəti və fəaliyyətsizliyi ilə baş verir".

Hərbi ekspert bildirib ki, atəşkəsin pozulmasının davamlı hal alması və daha sonra KTMT-yə daxil olan rəhbərlərindən verilən mesajlar Ermənistanı Qarabağ üzərində xəyal qırıqlığına uğratdı. Onun fikrincə, məhz Soçi görüşündən sonra Ermənistanın mətbuat vasitəsi ilə rus sülhməramlıların fəaliyyətinin vaxtının 20 ilə uzadılması Rusiya ilə Ermənistanın razılaşdırılmış bir planı idi. Lakin Ermənistan və Rusiyadan gələn bu cür mesajların cavabı Azərbaycan tərəfindən verildi:

"Prezident mesaj verdi ki, Rusiya sülhməramlılarının nəzarətində olsanız da belə təhlükəsizliyin təminatı yönündə həvəslənməyin, çünki rus sülhməramlılarının müddəti 2025-ci ildə bitəcək. Rusiyanın Ruben Vardanyanla bağlı layihəsinə də Azərbaycanın açıq cavabı oldu. Hesab edirəm ki, ermənilərin aqressivləşməsinin bir hissəsi də bununla bağlıdır. Digər tərəfdən, Rusiya sülhməramlıları elə bir şərait yaradıb ki, konflikt böyüsün. Ermənilər atəşkəsi pozmaqla sülhmərmlıları atəş altında qoymağa çalışır. Bu da ermənilərin gizli planlarıdır: ərazidə münasibəti gərginləşdirmək üçün atəşkəsi pozub sülhməramlıların arxasında gizlənib Rusiyanı atəş altında qoymaq. Erməni qeyri-qanuni birləşmələri bizim üçün ciddi təhlükə deyil. Amma bizi sülhməramlılarla qarşı-qarşıya qoya bilərlər. Hesab edirəm ki, bizim birinci eşalon bunun fərqindədir. 360 dərəcə perimetrdə siahlı qüvvələrimiz elə yerləşib, o bölgədə olan erməni silahlı qüvvələrinin qeyri-qanuni hərəkətlərini vizual olaraq izləyə bilirik. Nə qədər əlisilahlı var, mövqeləri nədən ibarətdir. Yeri gələrsə, biz nöqtə zərbələri həyata keçirməklə sülhməramlılara heç bir xətər törətmədən terrorçuları zərərsizləşdirmək imkanımız var. Ermənilər bu yöndə bizim hərbi qüvvələrimizin səbrini test edirlər. Lakin sülhməramlıların fəaliyyətsizliyi və qeyri-qanuni silahlı birləşmələrin atdığı addımlar antiterror əməliyyatını sürətləndirə bilər". E.Şıxəliyev bildirir ki, üçtərəfli bəyanata əsasən Rusiya sülhməramlıları bölgəyə daxil olan kimi, erməni qeyri-qanuni birləşmələri dərhal çıxarmalı idilər. Onun fikrincə, əslində bu gün Qarabağda Azərbaycana hörmətsiz yanaşan sülhməramlıların fəaliyyətlərini düzgün icra etməməsinin başlanğıcı onda oldu:



"Rus sülhməramlıları bugünkü atəşkəsin pozulması faktının toxumunu o zaman əkdilər, indi cücərtilərini görürük. Xatırladaq ki, müharibədə iştirak edən erməni ümumqoşun ordusunun iki diviziyası var idi - biri cənubda 18-ci, şimalda 10-cu diviziya. Bunlar müharibədən sonra indiki ərazilərdə - Xocalıda, Ağdərədə, Xocavənd, Xankəndi bölgəsində yerləşdi. Rusiya sülhməramlıları bunları yenidən təşkilatlandırıb bir hərbi birləşmə vəziyyətinə gətirib. İndi onlar onun adını "Qarabağ müdafiə ordusu" qoyublar. Təxminən, 6 minə yaxın əlisilahlı heyətin orada olmasını təşkilatlandırdılar. Rusiya bunu ona görə etdi ki, özünün strateji planlarında münaqişənin bitməsini istəmir. Hələ 2020-ci il 10 noyabrda bizim silahlı qüvvələr Laçın dəhlizindən çıxanda, Xankəndidə ümumiyyətlə erməni qalmamışdı. Ermənilər ərazini tərk edirdilər, Laçıq dəhlizi boyunca tıxac yaranmışdı. Şimal cəbhəsində də erməni alayları mühasirəyə düşürdülər. On min yaxına erməni hərbçisi mühasirəyə düşə bilərdi. Ermənilər kapitulyasiyaya imza atmaqla, həmin o qruplaşmaları xilas etdi. Buna isə Rusiya şərait yaratdı. Rusiya düşünür ki, bura gəlişləri əbədidir və strateji plan olaraq Azərbaycanda da bir baza yaratmaq istəyirlər. Planlar Soçi görüşündən sonra pozuldu.

Azərbaycan elan etdi ki, 2025-ci ilin sonrakı mərhələsində burada sülhməramlı olmayacaq. Soçi görüşündən sonra bizim siyasi iradənin verdiyi mesaj yerinə çatıb. İndi qeyri-qanuni birləşmələr, erməni siyasi rəhbərliyi yol xəritəsini 2025-ci ilə qədər hesablayır və qalmaq üçün variantlar axtarmağa başlayıb. Onlar anladılar ki, Laçın dəhlizini onlara ona görə rəva bilmişik ki, gələcəkdə onlar da Zəngəzur dəhlizini rəva bilsinlər.

Birtərəfli qaydada Ermənistan Zəngəzur dəhlizinin olmamasına qərar verəcəksə, biz Laçın dəhlizini niyə açıq saxlamalıyıq? Xüsusən də məlumdur ki, Laçın dəhlizi təyinatına görə istifadə olunmur. Ona görə də Azərbaycanın həm Rusiyadan, həm də Ermənistndan tələbi odur ki, öhdəlikləri yerinə yetirsin". Hərbi ekspert növbəti yol xəritəmizə diqqət çəkib. Onun fikrincə, birinci dinc yolla - Qarabağda olan ermənilərə Azərbaycan vətəndaşları olmalarını qəbul etdirməkdir. İkinci variant isə güc yolu ilə yol xəritəsini sonlandırmaqdır. Ekspert hər iki yolu Azərbaycanın legitim hüququ sayır: "Biz səbir edirik, çünki imzamıza hörmət edirik. Əgər üçtərəfli sazişə imza atmışıqsa, 2025-ci ilə qədər danışıqlar yolu ilə qarşı tərəfin sülhə gəlməsinə çalışacağıq. Yox əgər Azərbaycanı təhrik edəcəklərsə, "Fərrux", "Qisas" əməliyyatları növbəti dəfə keçiriləcək. Rusiya sülhməramlıları 2025-ci ildən o tərəfə çox da həvəslənməsin".

■ **YAP İdarə Heyətinin üzvü, politoloq Asif Əsgərli bilirib ki, Azərbaycan Müdafiə Nazirliyi Qarabağ İqtisadi Zonasında müvəqqəti yerləşən sülhməramlı kontingentinin rəhbərinə dəfələrlə müraciət, xəbərdarlıq etməsinə baxmayaraq, Rusiya tərəfi hələ də buna məhəl qoymur.** Ərazi adlarına özünün keçmiş sovet xəritələri, ərazi prinsipi əsasında yanaşır. A.Əsgərli qeyd edir ki, Qarabağda Ağdərə rayonu inzibati olaraq mövcud deyil, coğrafi olaraq Ağdərə şəhəri var. Onun fikrincə, bu şəhərə Mardakert deyilməsi, şübhəsiz ki, təxribatdır və Azərbaycan qanunvericiliyinə, Azərbaycan qanunlarına Rusiya tərəfinin hörmətsiz yanaşmasıdır:

"Bu, eyni zamanda Rusiya rəsmisinin fikirlərinə hörmətsiz münasibətdir. Rusiya dövlət başçısının iştirak etdiyi danışıqlarda, səsləndirdiyi fikirlərdə "Dağlıq Qarabağ" ifadəsi işlənmir. Soçi görüşündə bildirildi ki, Azərbaycan-Ermənistan münasibətlərindən söhbət gedir, "Dağlıq Qarabağ" deyilən münaqişə yoxdur. Azərbaycan qanunlarına görə, 14 iqtisadi rayonlardan biri də Qarabağ iqtisadi rayonudur. Təbii ki, buna uyğun olaraq adlar, coğrafi ərazilər qeyd olunmalıdır".

Politoloq bildirir ki, Rusiya sülhməramlıları öz missiyalarına uyğun olmayaraq, Laçın dəhlizindən ermənilərin silahlı birləşmələri üçün hərbi vasitələrin, terrorçu, separatçı qrupların daşınması "missiyasını" icra edir.

"Yəqin ki, Azərbaycan Laçının boşaldılması və digər məsələlərlə bağlı qarşı tərəfə vaxt qoyub, konkret addımlar atmalı olacaq. Rusiya sülhməramlılarının missiyası bölgədə sülh yaratmaqdır. Dəhlizə nəzarət onların fəaliyyətinə daxil deyil. Dəhlizə ciddi nəzarət Azərbaycanın əlində olmalıdır. Yəqin ki, Azərbaycan həmin ərazilərə giriş-çıxışa öz nəzarətinin qoyulması tələbini irəli sürəcək. Sülhməramlılar öz fəaliyyətindən əl çəkməsə, konkret addımlar atılacaq".

***Tahirə***

# Ermənilər Qarabağda “Sumqayıt” variantından istifadə edəcək

***Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarovla hafta.az üçün budəfəki söhbətimizdə Azərbaycan Müdafiə Nazirliyi ilə Rusiyanın Qarabağdakı “sülhməramlı” kontingentinin komandanlığı arasında son həftələr qızışmaqda olan söz polemikası fonunda bölgədəki durum, “sülhməramlı”larla bundansonrakı davranışın tənzimlənməsi yolları, Laçın yolundakı Ermənistanla dövlət sərhədində Azərbaycan tərəfinin müvafiq postlar qurması, ermənilərlə savaşın bərpası ehtimalı, həmçinin, Rusiyanın Ukraynaya qarşı təcavüzkar savaşının qış mövsümündə gözlənilən gedişi və s. barədə danışdıq.***



**Tofiq Zülfüqarov,**
keçmiş xarici işlər naziri

## Müsahib

***- Son vaxtlar Azərbaycan Müdafiə Nazirliyi ilə Rusiyanın Azərbaycan torpaqlarında müvəqqəti yerləşdirilmiş “sülhməramlı” kontingentin komandanlığı arasında söz polemikası xeyli kəskinləşib. Qarşıdurma getdikcə dərinləşir. Digər tərəfdən, ermənilər atəşkəsin pozulması intensivliyini getdikcə artırırlar. Sizcə, bu durum prosesləri haraya doğru aparır, bölgədə yeni genişmiqyaslı savaş baş qaldıra bilərmi?***

- Bəli, son vaxtlar Yuxarı Qarabağ və Şərqi Zəngəzur ətrafında gərginlk artıb. Bu gərginlik onunla bağlıdır ki, Azərbaycan son iki il ərzində həmin bölgədə öz imkanlarını xeyli artırıb. Odur ki, rəsmi Bakı hazırda istəyir ki, Rusiya hərbçilərinin fəaliyyəti də biz istədiyimiz istiqamətdə olsun. Əslinə qalsa, bu, düzgün taktikadır. “Sülhməramlılar” orada öz funksiyalarını düzgün yerinə yetirdikləri halda, onların orada olmasının xeyrinə qane olmaq olar. Ona görə ki, indiki mərhələdə ermənilər sanki bizdən hansısa kəskin hərəkət gözləyirlər ki, yenə dünyaya haray-həşir salsınlar ki, vay, qoymayın, bizi qırdılar. Yəni bu, bəllidir. Bu məqamda biz həmişə deyə bilərik ki, orada sülhməramlılar var, onlar vəziyyətə nəzarət etməlidir.

Bəs necə edək ki, Rusiyanın sülhməramlı sayılan kontingentinin fəaliyyəti bizim xeyrimizə olsun? Bu, təbii ki, incə diplomatik iş tələb edir. Və daim Rusiya kontingenti ilə iş aparılmalıdır. Yəni biz xırda addımlarla öz məqsədimizə doğru irəliləməliyik. Misal üçün, “Laçın dəhlizi” deyilən ərazidəki vəziyyəti götürək. Biz deməliyik ki, o ərazidə Azərbaycan dövləti olaraq sülhməramlılarla birgə iş aparmaq niyyətindəyik. Yəni orada biz sərhəd, gömrük, fitosanitar və s. xidmətlər qurmalıyıq, siz də öz müşahidə-nəzarət postlarınızda öz işinizi görün, yəni təhlükəsizliyi və sülhü təmin edin. Biz də qanunlara uyğun olaraq öz işimizi görək. Hesab edirəm ki, biz ilkin mərhələdə bunu etməliyik və Qarabağdan Ermənistana və əksinə gedib-gələn erməniləri Laçında sərhəd postlarındakı Azərbaycan dövlətinin hərbçilərinin, sərhədlçilərinin, məmurlarının varlığına öyrəşdirməliyik. Artıq 30-32 il ərzində haylar bizə yalnız səngərdən, silahların nişangahlarından baxmağa vərdiş ediblər, indi zəhmət çəksinlər, üzbəüz ünsiyyətdə olub qanunlarımızla hesablaşsınlar. Və qoy ermənilər bilsinlər və əmin olsunlar ki, Azərbaycanın onlara qarşı əsla, öz beyinlərinə yeritdikləri kimi, soyqırım-filan törətmək məqsədi yoxdur. Sadəcə, istəyirik ki, onlar da digər yerli və xarici vətəndaşlar kimi Azərbaycan ərazisində yaşayanda və yaxud bu dövlətin sərhədindən keçəndə bizim qanunlarımızla hesablaşsınlar...

Digər hansısa məsələləri də biz Rusiya kontingenti vasitəsilə həll edə bilərik. Yəni “sülhməramlı”ların torpaqlarımızda varlığı məsələsinə praktik baxımdan yanaşmalıyıq. Yoxsa populist çıxışlar etmək, hay-küy qaldırmaq, “sülhməramlı”lara torpaqlarımızdan çıxıb getmək çağırışı etməklə biz Azərbaycana qarşı təxribatlara şərait yarada bilərik...

***- Yəni bir sıra şərhçilərin də dediyi kimi, Putin Azərbaycana qarşı “Cənubi Osetiya” variantından istifadə edə bilər?***

- Bəli. Özü də düşmənlərimiz yalnız “Cənubi Osetiya” yox, “Sumqayıt” variantından da istifadə edə bilərlər. Yəni 1988-ci ildə Sumqayıt hadisələrində olduğu kimi, ermənilərin özləri-özlərini öldürüb Azərbaycan ordusunun üzərinə atması da mümkündür... Bu,ermənilərin daim yararlandığı iyrənc bir metoddur. İndi biz düşmənlərimizə sərf edən yolla gedək, yoxsa daha rasional, praktik bir yolla?.. Hesab edirəm ki, öncə qeyd etdiyim praktik yol bizim məqsədlərə çatmağımıza xidmət edən ən əlverişli bir yoldur... Hər halda taktiki baxımdan biz radikal yanaşmanı dəyişməliyik...

Rusiya hərbçilərinə də xoşluqla demək olar ki, biz sizi qovmuruq ki... Biz deyirik ki, qalın, amma öz sülhməramlı funksiyalarınızı və 10 noyabr bəyanatında nəzərdə tutulmuş məsələləri icra edin və bizə Laçın yolunda sərhədimizə nəzarət etməyə şərait yaradın - əks halda sizin ərazimizdən çıxmağınızı tələb edəcəyik. Əsas tezislər bunlardan ibarət olmalıdır...

***- Rusiya Müdafiə Nazirliyinin və “sülhməramlı” kontingentin Qarabağ və Şərqi Zəngəzurun bir hissəsində Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı saymazyana davranışlarını əsas götürüb demək olarmı ki, həmin ərazi faktiki olaraq Rusiyanın işğalı altındadır?***

- Xeyr. Mən bununla heç vaxt razı olmamışam. Biz bunu işğal faktı kimi tanımırıq. Eləcə də Rusiya bunu bəyan etmir... Və yenə də deyirəm, biz daha çox praktiki məsələlərə meydan verməliyik... Bəzən deyirlər ki, yox, Rusiya kontingenti Qarabağda biz dediklərimiz şərtlərlə razılaşmaz... Düzdü, Ukrayna müharibəsindən əvvəlki şəraitdə razılaşmazdılar. Ancaq hazırkı şəraitdə razılaşarlar. Ən azı ona görə ki, Qarabağda, Laçın “dəhlizi”ndə xidmət edən Rusiya komandirləri, zabitləri də yaxşı başa düşürlər ki, onları buradan çıxarsalar, göndərəcəklər Ukraynaya - Donbasa, ən qaynar nöqtələrə...

Deyirik ki, Laçın “dəhlizi”ni öz nəzarətimizdə saxlamaq lazımdır. Bunun iki yolu var, - açıq danışaq, - ya xoşluqla, ya hərbi güc hesabına Rusiya hərbçilərini oradan qovmaq, ya da onları bizim şərtləri, yəni sərhəd məntəqələrimizdə lazımi sərhəd, gömrük və s. postlarını qurmaqla razılaşdırmaq... Amma təəssüf ki, Azərbaycanda bəziləri ya siyasətdən uzaq olub vətəni, sadəcə, emosiyalarla sevməklə, ya da “məşhurlaşıb” gündəmdə qalmaq üçün haray salırlar ki, yox, gəlin Rusiya “sülhməramlı”larını Qarabağdan birdəfəlik qovaq, rədd olub getsinlər və s. Bu saat mən də belə fikir söyləsəm, bir çoxları deyəcək ki, afərin, vətənpərvərdir... Amma ondan sonra, yəni Rusiya hərbi kontingentinin Qarabağdan çıxmasını rəsmən və qəti şəkildə tələb edəndən sonra nə baş verəcəyini də gəlin fikirləşək... Təkrar edirəm ki, söz deyişməsindən açıq qarşıdurmaya keçmək vaxtı deyil, praktik, rasional addımlarla real iş görmək gərəkdir...

> *“Ukraynada savaş tam yekunlaşmamış kəskin davranışlara yol verməyək*

***- Belə çıxır ki, bəzilərinin populist çıxışlarına rəğmən hazırda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurun qalan hissəsini hərbi yolla öz yurisdiksiyasına qaytarması üçün şərait hələ yetişməyib?***

- Yox, ümumiyyətlə, deyilən işləri görmək üçün şərait yetişib. Amma bunu sırf hərbi yolla həll etməkdən söhbət getmir. Düzdü, hamı bilir ki, Qarabağ və Şərqi Zəngəzurdakı Rusiya hərbi kontingenti və qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ordusunun bölgədəki gücündən qat-qat zəifdirlər. Lakin məsələ ondadır ki, biz problemi hərbi güclə həll etsək, qarşı tərəf bizdən qisası, başqa -siyasi istiqamətdə də ala bilər. Məsələn, ermənilər yenə dünyaya haray sala bilərlər ki, ay aman, qoymayın, Azərbaycan bizi qırdı... Fransa Senatı, yaxud elə Rusiya Duması hansısa bədnam qətnamə və ya ABŞ Dövlət Departamenti sanksiya qəbul edəcək və s. və i.a. Yəni hesab edirəm ki, hələlik dediyim o nisbətən yumşaq metoddan istifadə etmək lazımdır. Əgər nəticə verməsə, sonra baxarıq. Baxaq görək, Ukrayna savaşında hadisələr necə inkişaf edəcək...

***- Sizcə, İlham Əliyevin Brüssel danışıqlarından imtina etməsi Azərbaycan tərəfinin savaş yolu seçməsi deməkdir?***

- Xeyr. Bu, onu göstərir ki, Azərbaycan təzyiq dilini qəbul etmir. Fransa “mənəm-mənəm” deyərək həm vasitəçilik edir, həm də öz daxili siyasətində bu və ya digər şəkildə ermənipərsət mövqe sərgiləyir. Prezident də buna cavab verdi ki, yox, biz təzyiq və təhdidləri qəbul etmirik. Və hesab edirəm ki, düz elədi. Onsuz da - Brüsseldi, Vaşinqtondu, Moskvadı -hamısı istənilən halda bu mövzuya qayıdacaqlar. Və onlar öz mövqelərində dəyişiklik etdikdən sonra biz məsələyə baxmağa hazır olacağıq...

***- Bəs onda bu savaş ritorikasını qızışdıran kimdir? Bölgədə genişmiqyaslı hərbi əməliyyatların bərpası hansı dövlətə sərf edir; Rusiyaya, Avropaya, yoxsa elə Ermənistana, yaxud İrana?..***

- Zənnimcə, bu, heç bir tərəfə sərf etmir. Çünki Rusiya o durumda deyil ki, Cənubi Qafqazdakı növbəti müharibədən, yəni hərbi əməliyyatların bərpasından uduş əldə edə bilsin. Fransanın bu bölgədə heç bir hərbi imkanı yoxdur. İranı götürsək, onun öz daxili problemləri özünə bəs edir. Bəlkə də Ermənistana, Paşinyana Qarabağın tam şəkildə Azərbaycanın rəsmi nəzarətinə qaytarılmasıyla nəticələnəcək savaş o mənada sərf edə bilər ki, Qarabağ proleminden birdəfəlik qurtulsun. Amma sonra deyəcək ki, bəs hərbi əməliyyatların başlanmasının günahı Azərbaycandadır, özü də Qarabağda soyqırım törədib... Yəni təxminən davranışı belə olacaq...

***- Necə hesab edirsiniz, Rusiya və Ukrayna bu qışdan necə durumda çıxacaq?***

- Doğrusu, mən rus analitik və təbliğatçılarına qulaq asanda görürəm ki, hamısı böyük təşviş içindədirlər. Xüsusən Solovyov gərginlik və panika içindədir və son verilişlərini də bu ruhda, bu səpkidə aparır. Bu da onu göstərir ki, doğrudan da, Rusiyanın durumu çox gərgin və ağırdır. Daxili siyasi problemlər də göz qabağındadır. Fikirlər, rəylər bölünüb. Digər tərəfdən isə Kremldə hansısa ciddi siyasi böhran olsa və hakimiyyət çevrilişinə cəhd olsa, Qərb çalışacaq ki, həmin proseslər onun təsiri altında getsin. Və Putinin yerinə gələcək siyasi dairələr daha praktik davranışlar göstərsinlər. Hesab edirəm ki, hazırda Rusiyadakı proseslər məhz bu istiqamətdə gedir. O biri tərəfdən Qərbdə, ABŞ-da bu problemləri görsələr də, düşünürlər ki, bəlkə də Rusiyanı tam dağıdıb parçalamaq doğru deyil və hakimiyyətin dəyişməsini hansısa nisbətən sakit durumda təmin edək. Buna görə də artıq Qərb tərəfindən də Ukrayna savaşında danışıqların bərpa olması, atəşkəs elan edilməsi çağırışları səslənir... Sırf müharibə meydanına gəldikdə, qarşıdan sərt qış mövsümü gəlir və hərbi əməliyyatların azalması və intensivliyinin aşağı düşməsi artıq göz qabağındadır. Baxaq, görək... O da var ki, Avropada geniş qeyd olunan Milad, Yeni il bayramları ərəfəsindəyik. Və orada siyasi elita bu dövrdə məzuniyyətə getməyə, istirahət etməyə vərdiş edib. Yəni bu aylarda istər-istəməz siyasi fəallıq azalır... Hesab edirəm ki, qarşıdakı 10-15 gün ərzində hansısa ciddi hadisələr baş verməsə, bəlkə də Rusiya-Ukrayna savaşı mövzusunda həlledici olaylar Yeni ildən sonraya qalacaq...

***- Putin ordusunun ölkənin enerji infrastrukturuna bu günədək vurduğu və bundan sonra vuracağı zərbələr qışda istilik, yanacaq, işıq problemlərini daha da ağırlaşdırsa, bu, Ukrayna xalqının mübarizə əzminə və yekunda hərbi əməliyyatlara və rəsmi Kiyevin siyasi qərarlarına təsir göstərə bilərmi?***

- Bəli, belə problemlər Ukraynada, təəssüf ki, artıq başlayıb. Düzdü, Ukrayna dövləti Rusiya raketlərinin, dronlarının dağıtdığı infrastruktur obyeklərinin çoxunun işini bərpa edib. Ancaq yenə də problemlər qalır və bundan sonra da Rusiyanın kütləvi raket hücumları davam edərsə, həmin problemlər qışın sərt soyuqlarında daha da güclənə bilər. İnanmıram ki, Ukraynada kimsə küçəyə çıxıb Zelenski hökumətindən hərbi əməliyyatları dayandırıb Rusiyaya təslim olmağı tələb edəcək - bu mümkün deyil. Ukraynada ümumi əhval-ruhiyyə hələ də yüksəkdir. Amma rəhbərlik tərəfindən texniki atəşkəs və humanitar məsələləri həll etmək üçün İstanbulda və ya digər məkanda danışıqlara başlamaq təklifləri ola bilər...

***- Onda belə çıxır ki, hələ gələn ilin, yəni 2023-cü ilin yayınadək Ukraynada savaşın tam bitəcəyini gözləmək olmaz?..***

- Bəli... Açığı desək, mən həm də buna görə təklif edirəm ki, Ukraynada müharibə tam yekunlaşmamış Qarabağ və Zəngəzurda kəskin davranışlara yol verməyək... Hamıdan öncə özümüzü meydanın ortasına atmayaq... Putin son çıxışlarında deyib axı ki, Rusiyanın məhv olacağı barədə şayiələr hələ vaxtından əvvəl yayılıb...

***✍ Sultan Laçın***

## Müsahib

***Üçtərəfli atəşkəs sazişinə imza atan Rusiya və Ermənistanın öz öhdəliklərini yerinə yetirməməsi danışıqları Brüsselə qədər daşısa da, Ermənistanın sülhə cavab verməməsi üzündən bu danışıqlar formatı dalana dirənə bilər. Ermənistan Fransa timsalında vasitəçilərin sayını artırmaqla sülh prosesini uzadır, üstəlik, rus sülhməramlılarının Qarabağda öz missiyasına uyğun davranmaması Ermənistanın Azərbaycanı müharibəyə təhrik etdiyini, vəziyyətin gərginləşdirilməsinə yönəldiyini bir daha ortaya qoyur. İrandan Azərbaycana qarşı hücum təhdidlərinin ortaya çıxması da birmənalı qarşılanmır. Mövcud durumla bağlı “Həftə içi”nin suallarını Milli Məclisin deputatı Hikmət Babaoğlu cavablandırır.***



**Hikmət Babaoğlu,**
Milli Məclisin deputatı

# İran daim Azərbaycana müstəmləkə gözü ilə baxıb

***- Azərbaycan Prezidentinin Brüssel görüşündən məlum imtinası danışıqlar prosesinin hansı istiqamətə yön aldığını göstərir?***

- Azərbaycan Prezidentinin Brüssel görüşü ilə bağlı fikirləri Ermənistanın sülh diplomatiyasını şantaj etməsinə cavab olaraq səsləndirilib. Əslində, Brüssel formatı postmüharibə dövründə formalaşan və ən ümidverici nəticələrə gətirib çıxara biləcək formatlardan biri kimi qəbul edilirdi. Ermənistan sülh istəmədiyinə görə bu formatla bağlı manipulyasiya etməyə və nəticədə şərt qoymağa başladı. Şübhəsiz ki, qalib bir ölkəyə qarşı şərtlər irəli sürmək mümkün deyil.

Üstəlik, əgər bu şərtlər regional sülhə töhfə verməyəcəksə və beynəlxalq hüquqa zidd olacaqsa, heç cür mümkün deyil. Azərbaycan isə heç bir danışıq prosesini boykot etmir və yaxud imtina etmir. Sadəcə olaraq Ermənistanın diplomatik manipulyasiyaları belə bir mürəkkəb vəziyyət yaradır. Əlbəttə ki, sülh üçün müddətin əhəmiyyəti, nə zaman baş verəcəyi bizim üçün o qədər də vacib deyil. Biz ərazi bütövlüyümüzü bərpa etmişik və faktiki olaraq bu gün hər tərəfə yollarımız açıqdır. İqtisadi kommunikasiyalar vasitəsilə özünü blokadaya salan Ermənistandır. Şübhəsz, mümkün sülh bütün kommunikasiyaların açılmasını nəzərdə tutur. Ermənistanın ən yaxın qonşuları ilə belə normal əlaqələr quracağı kommunikasiyalar yoxdur. Ona görə də bu gün Ermənistan narahat olmalıdır. Azərbaycan yenə də sülh istəyir və Ermənistanın öz öhdəliklərini yerinə yetirməsini tələb edir. Sülh Zəngəzur dəhlizindən, Zəngəzur dəhlizi vasitəsilə kommunikasiyaların açılmasından keçir. Söhbət təkcə dəmir yolunun deyil, ona paralel olaraq avtomobil yolunun açılmasından keçir. Bu, üçtərəfli bəyanatın 9-cu maddəsində qeyd olunur.

> *“Biz artıq postmüharibə dövründə, Fərrux, “Qisas” əməliyyatı təcrübəsini keçmişik*

Ermənistan özünü çox ağıllı hesab edir, düşünürlər ki, Zəngəzur yolundan dəmir yolu xəttinin keçməsinə razılıq verəcəklər, Rusiya ilə dəmir yolu ilə birbaşa əlaqə quracaqlar, Azərbaycana isə öz qərb rayonları ilə avtomobil yolu ilə əlaqə qurmasına imkan verməyəcəklər. Bu, mümkün olan məsələ deyil. Ona görə də yaxşı olardı ki, Ermənistan bu cür sülhə qarşı təxribatlardansa, real vəziyyəti düzgün qiymətləndirib proqressiv mövqe nümayiş etdirə bilsin.

***- Rusiya sülhməramlıları Azərbaycanı atəşkəsi pozmaqda günahlandırmaqdan çəkinmir və Qarabağda Azərbaycan toponimlərini erməni adları ilə adlandırır. Buna qarşı hansı cavab addımları atılmalıdır?***

- Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlıları öz missiyalarına adekvat davranmırlar. Birincisi, hələ də onlar üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər. Həmin öhdəliklərdən bir bu idi ki, Rusiya sülhməramlıları əraziyə daxil olan kimi paralel olaraq erməni silahlı birləşmələri Azərbaycan ərazilərindən çıxrımalı idi. Üçtərəfli sazişin 4-cü maddəsi hələ də yerinə yetirilməyib. İkincisi, get-gedə sülhməramlı missiyaların olduğu ərazilərdə ermənilər daha da aqressivləşir və bizim mövqelərimizi atəşə tuturlar. Bu da yolverilməzdir. Üstəlik, Rusiya sülhməramlıları Azərbaycan ərazilərini, inzibati vahidlərimizi, toponimlərini erməni dilində deməklə yenə də sülh missiyası deyil, hansısa başqa bir missiya iddiasında olduqlarını ortaya qoymuş olurlar. Ona görə də Azərbaycan Müdafiə Nazirliyi bununla bağlı xəbərdarlıq edib. Əminəm ki, bu xəbərdarlıqdan sonra qətiyyətli addımlar atıla bilər. Biz artıq postmüharibə dövründə, Fərrux, “Qisas” əməliyyatı təcrübəsini keçmişik. Bilirik ki, regionda vəziyyət belə davam edərsə, Azərbaycan daha qətiyyətli addımlar atacaq.

O ki qaldı Azərbaycan-Ermənistan-Rusiya üçbucağında danışıqların aparılmasına, Azərbaycan Prezidenti Praqada qeyd etdi ki, Gürcüstan-Azərbaycan - Ermənistan platforması yarada bilərik. Mən düşünürəm ki, bu platforma sülh üçün ən uyğun platforma ola bilər. Fransa və digər aktorlar proseslərə müdaxilə edə bilməzlər.

Bu platformada iştirak edən üçüncü, yaxud dördüncü dövlət mütləq danışıqlar prosesində öz maraqlarını güdəcəkdir və regiona müdaxilə ertmək üçün müəyyən mexanizmlər qurmağa çalışacaqdır. Ona görə də Azərbaycan Prezidenti Gürcüstan-Azərbaycan-Ermənistan platformasını təklif etdi. Düşünürəm ki, bir qədər realist olmaq lazımdır. İndiki mərhələdə qlobal aktorların mövqeləri müəyyən qədər təsiredici rol oynaya bilər. Ermənistan rasional davranarsa, regiondakı prosesləri düzgün qiymətləndirməyi bacararsa, öz maraqlarının ən optimal yollarını tapmağa cəhd edərsə, başa düşəcək ki, ən yaxşı platforma Cənubi Qafqaz platforması ola bilər ki, Azərbaycan Prezidenti artıq bu təklifi irəli sürüb.

***- Zəngəzur yolunun açılması ilə bağlı maneə yaradan əsas aktorlarından biri də İrandır. Məsələyə İranla münasibətlər kontekstində yanaşsaq, mövcud vəziyyəti necə əlaqələndirmək olar?***

- İran daim Azərbaycana müstəmləkə gözü ilə baxıb. Azərbaycanın güclənməsi, müstəqil olması, üstəlik, Zəngəzur dəhlizini açması, İranda yaşayan milyonlarla azərbaycanlı üçün bir ilham mənbəyinə çevrilir. Onların dil, mədəniyyət hüquqlarını müdafiə etməsi üçün bir cazibə yaradır. Ona görə də İran hesab edir ki, Azərbaycan güclənərsə, İranda yaşayan azərbaycanlılar da güclənə bilər. Buna görə də daim Azərbaycana qarşı aqressiv mövqe, güc nümayiş etdirir. Baş verən hadisələr onu göstərir ki, bu cür vasitələrlə Azərbaycana təsir etmək mümkün deyil. Ona görə ki, İranda yaşayan 40 milyon azərbaycanlı icazə verməz ki, fars rejimi Azərbaycana qarşı hansısa addımları atsın.

Ona görə də əgər İran doğrudan da özünün dövlətçilik maraqlarını, vətəndaşlarını, 52 faiz İran azərbaycanlılarının maraqlarını düşünürsə, bu cür sərt ritorikadan, güc nümayiş etdirməkdən əl çəkməlidir. İran Ermənistanı müdafiə etməkdən əl çəkməlidir. Ermənistanı müdafiə etməklə öz vətəndaşlarının maraqlarının əleyhinə getmiş olur. Belə olan halda İrandakı türklər və qeyri-türklər, amma imanlı müsəlmanların hamısı İran rejimindən soruşacaq ki, məscidlərə donuz bağlayan Ermənistanı niyə müdafiə edirsiniz? Bax, onda İran hökumətinin onlara verməyə cavabı olmayacaq. Ona görə də düşünürəm, İran Azərbaycana müstəmləkə gözü ilə baxmaqdan əl çəkməli və Azərbaycana qarşı apardığı hər üç-tiryək, narkotika, casusluq, dini-ideoloji müharibəni dayandırmalıdır. Əslində, bu komponentlərin heç biri Azərbaycana qarşı işələmir. İran, Azərbaycan xalqı da görür ki, səmimi islam ölkəsi, İslam ölkəsini dağıdan xristian ölkəsi ilə müttəfiq ola bilməz.

***✍ Tahirə Qafarlı***

# Gender bərabərliyinə yeni töhfə

## Layihə

***Məlum olduğu kimi, Azərbaycanda qadınlara qarşı-ayrı seçkiliyin bütün halları qanunvericiliklə qadağandır. Cəmiyyət həyatının bütün sahələrində gender bərabərliyinin və qadın hüquqlarının təmin olunması, müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Amma ölkədə bəzi qanunvericilik aktları var ki, cəmiyyətdə qadınlara qarşı-ayrı seçkiliyi tam aradan qaldırmağa imkan vermir. Məsələn, gender bərabərsizliyinin özünü ən çox göstərdiyi sahələrdən biri əmək bazarıdır.***



Azərbaycanda qadınların çalışa biləcəkləri iş yerlərinin sayı artırılacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Belə ki, ölkəmizdə qadınlarla kişilər əmək bazarında bərabər hüquqlara malik deyillər və Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq normativlərə əsasən qadınlara bəzi sahələrdə işləmək qadağandır. Dövlət başçısının imzası ilə Milli Məclisə daxil olan "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsində məhz əmək münasibətlərində iştirak sahəsində gender bərabərliyi prinsipinə tam əməl olunması, qadınların əmək bazarında fəal iştirakı ilə bağlı maneələrin aradan qaldırılması üçün qanunvericiliyə dəyişikliklər nəzərdə tutulub.

Qanun layihəsinə əsasən, mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılaraq 204 müəyyən ediləcək, eyni zamanda, qadağan edilən peşə (vəzifə) və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq ediləcək. Nəticədə respublikada əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasında, kişi və qadınlara bərabər rəftar və bərabər məşğulluq imkanlarının yaradılmasında əsaslı dönüş yaranacaq, ölkə üzrə qadınların orta aylıq əmək haqlarının kişilərin aylıq orta əmək haqqına yaxınlaşması təmin ediləcək.

Yeri gəlmişkən, statistik məlumatlara görə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon nəfərdən çoxdur. Onun 48,6 faizi və ya 2,4 milyonu qadın, 51,4 faizi və ya 2,6 milyon nəfəri kişilərdir. İqtisadi qeyri-fəal əhalinin sayı isə 2.1 milyon nəfərdən çoxdur. Onun 1,4 milyon nəfəri və ya 65,8 faizi qadın, 733 min nəfəri və ya 34,2 faizi kişilərdir.

2016-cı ildə hazırlanan milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinə görə, Azərbaycan iqtisadiyyatının qarşısına qoyulacaq əsas vəzifələrdən biri qadınların əmək bazarına cəlb olunması, onların keyfiyyətli işlə təmin edilməsi və sahibkarlıq fəaliyyətinin inkişafı üzrə stimullaşdırıcı tədbirlərin görülməsidir.

Bunun üçün İqtisadiyyat Nazirliyinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin üzərinə bir sıra səlahiyyətlər qoyulub. 2019-2030-cü illər üçün Məşğulluq Strategiyasında da qadınlar arasında işsizlik səviyyəsinin azaldılması prioritet məsələ olaraq nəzərdə tutulub. Eyni zamanda 2025-ci ilədək qadınların səmərəli məşğulluğu və layiqli əməyə nail olunması strateji hədəf olaraq seçilib.

Hazırda Nazirlər Kabinetinin qərarına uyğun olaraq Azərbaycanda 38 sahədə 678 iş yeri üzrə qadın əməyinin tətbiqi qadağandır. Qadınlara qadağan edilən iş yerləri arasında xəmir yoğuran, mal-qara kəsən, dalğıc, desant-yanğınsöndürən, paraşütçü-yanğınsöndürən, əl ilə odun doğrayan, buldozer maşinisti, bacaların və sobaların təmizlənməsi ilə məşğul olan təmizləyici, əl ilə elektrik qaynaqçısı, təyyarələrə texniki xidmətlə məşğul olan mühəndis və texnik kimi peşələr də var. Bu peşələrdə çalışmağın qadınlara qadağan olunmasının səbəbi Əmək Məcəlləsində qadın əməyinin tətbiqi qadağan olunan iş yerləri və işlərə dair normalardır.

> *"Bu sənədlə Azərbaycanda 674 adda peşədə qadınların əməyinə qoyulan qadağa ləğv edilir*

Həmin normalara görə:

- Əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin tətbiqi qadağandır.

- Bir qayda olaraq, fiziki işlə məşğul olmayan, rəhbər vəzifələrdə çalışan və ya sosial, sanitar-tibbi xidmətlər göstərən, habelə fiziki işlər görmədən yeraltı iş yerlərinə düşüb qalxmaqla ayrı-ayrı vaxtlarda qadınlar tərəfindən müvafiq yeraltı işlərin yerinə yetirilməsinə yol verilir.

- Qadınların 15 kiloqramdan artıq ağır əşyaların qaldırılması və 10 kiloqramlıq əşyanın bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsi qadağandır.

- Hamilə və 3 yaşınadək uşağı olan qadınların bu maddədə nəzərdə tutulmuş işlərin görülməsinə cəlb olunması qadağandır.Bu gün dünyada qadın əmək haqqı ilə kişi əmək haqqı arasında kifayət qədər fərq var.

Əslində bu problem təkcə ölkəmizdə mövcud deyil. Hazırda dünyanın 104 ölkəsində bu tip qadağalar mövcuddur. Eyni zamanda, 29 ölkədə qadınların gecə növbəsində işləməsinə icazə verilmir, 18 ölkədə isə kişilərin öz həyat yoldaşının işləməsini qadağan etmək hüququ var. Amma belə qadağalar əsasən zəif inkişaf etmiş iqtisadiyyata sahib olan ölkələrdə müşahidə edilir, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində bu tip qadağalara rast gəlinmir. Nəzərə almaq lazımdır ki, artıq Azərbaycan iqtisadiyyatı zəif olan ölkələr sırasında deyil və bu gün ölkə iqtisadiyyatı kifayət qədər inkişaf edib. Artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə dayanıqlı inkişafın təminatçısıdır. Ümumiyyətlə, 2022-ci ildə ümumi daxili məhsul - 7,2 faiz, qeyri-neft sektoru 11,5 faiz, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Xarici borcumuz ÜDM-nin 12,5 faizini təşkil edir. Ölkəmizin strateji valyuta ehtiyatları 52 milyard dollara çatıb.



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

Göründüyü kimi, Azərbaycan getdikcə iqtisadi imkanlarını daha da gücləndirir. Bu isə onu deməyə əsas verir ki, cəmiyyətin, insan kapitalının inkişafına mane olan qanunvericilik aktlarının müasir dövrün çağrışlarına uyğunlaşdırılmasının tam zamanıdır.

■ **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev də bizimlə söhbətində bildirib ki, bu dəyişikliklər Azərbaycanın gender bərabərliyi siyasətinə növbəti töhfədir.** O, təklif olunan qanun layihəsinin qadınların əmək hüququnun daha da genişləndirilməsinə, qadınların daha çox əməkhaqqı ödənilən sahələrə çıxışına olan məhdudiyyətlərin azaldılmasına xidmət edəcəyini bildirib: "Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi eyni zamanda, insan kapitalının inkişafı sahəsində ölkədə həyata keçirilən işlərin davamıdır. Bu sənədlə Azərbaycanda 674 adda peşədə qadınların əməyinə qoyulan qadağa ləğv edilir, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara 204 iş yeri və ya peşədə işləməyə məhdudiyyət qoyur. Layihə işçilərin peşə hazırlığının səviyyəsinin yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi, habelə ixtisasının artırılması kimi məsələlərin hüquqi tənzimlənməsini nəzərdə tutur. Həmçinin dəyişikliklərə əsasən, işçilərin attestasiyası, ixtisarı kimi hallarda işçinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin və ixtisasının artırılmasının nəticələri nəzərə alınır.

Komitə sədri əlavə edib ki, kimya sənayesinin müxtəlif sahələri, yüksək radiasiyalı müəssislər, yüksək təhlükəlilik törədə biləcək sahələrdə də bundan sonra da qadınlar çalışmayacaq: "Qanun qəbul olunandan sonra ağır işlərin siyahısı Nazirlər Kabineti tərəfindən yenidən tərtib olunacaq".

■ **Mövzu ilə bağlı Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri, hüquqşünas Sahib Məmmədov isə deyib ki, hazırda "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" qərarda 500-dən çox iş və peşədə qadınların işləməsi qadağandır:** "Bu reproduktiv sağlamlığın qorunması naminə edilir. Amma qlobal təzyiq artıq bu siyasəti dəyişməyi zəruri edib. Hazırda belə iş yerlərinin məhdudlaşdırılması nəzərdə tutulur. Bu addım isə qadınların əmək bazarında fəaliyyətinin genişləndirilməsinə şərait yaradılacağı gözlənilir".

Onun sözlərinə görə əmək qanunvericiliyində qadınlara təxminən 27 növ güzəşt və ya imtiyazlar nəzərdə tutulur: "Onlardan əhəmiyyətli hissəsi xərc tutumlu və ya işəgötürənin dolayı xərcə düşməsinə gətirir. Məşğul qadınların xeyli hissəsi bu imtiyaz və güzəştlərdən bəhrələnə bilmir.

Bunun bir neçə səbəbi var. Birincisi, qeyri-formal məşğulluqdur. Bu zaman qadınlar nəinki bu imtiyaz və güzəştlərdən istifadə edə bilmir, hətta onların əmək qanunvericiliyi ilə müəyyən edilən elementar hüquqları da təmin olunmur. İkinci səbəb imtiyaz və güzəşt xərclərinin əksəriyyətinin işəgötürənin üzərində olmasıdır. Ona görə də əmək qanunvericiliyində qadınlar üçün nəzərdə tutulan imtiyaz və güzəştlərin təsnifatladırılması zərurəti var. Eyni zamanda, bu güzəşt və imtiyazlar üçün nəzərdə tutulan bütün xərclər işəgötürənin üzərində qala bilməz. Bunun bir hissəsi dövlətin və ya dövlət tərəfindən yaradılan xüsusi fondların üzərinə keçirilməlidir. Əks halda qadınlara qarşı gizli diskriminasiya davam edəcəkdir".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstana səfər edib. Bu barədə Emin Hüseynov "Twitter" hesabında paylaşım edib. Səfər çərçivəsində Emin Hüseynov Macarıstan Xarici işlər və Ticarət Nazirliyində Dövlət Katibinin müavini Katalin Bihari, Adam Ştifter və digər rəsmi şəxslərlə görüşüb.

---

■ Ukraynada müharibə başlayandan bəri 100 mindən çox ukraynalı hərbçi həlak olub. Bu barədə məlumatı Avropa Komissiyasının Prezidenti Ursula von der Lyayen videomüraciətində açıqlayıb. Onun sözlərinə görə, həmçinin müharibə zamanı 20 mindən çox mülki vətəndaş həlak olub.

---

■ 2022-ci ilin yanvar-oktyabr ayları ərzində 20 932 nəfərə yaşa, əlilliyə və ailə başçısını itirməyə görə proaktiv qaydada pensiya təyinatı aparılıb. Dövlət Sosial Müdafiə Fondundan verilən xəbərə görə, onların 66,2%-ni kişilər, 33,8%-ni isə qadınlar təşkil edib.

---



■ Yaradılan qabaqcıl silah sistemləri Ukraynada xüsusi hərbi əməliyyat çərçivəsində tətbiq edilməlidir. Bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu nazirliyin kollegiya iclasında bildirib. "Modernləşdirməni və perspektivli sistemlərin yaradılmasını xüsusi hərbi əməliyyat zamanı istifadə etməyi davam etdirmək lazımdır", - deyə Rusiya MN başçısı vurğulayıb.

---

■ "Beynəlxalq təşkilatlar, bəzi xarici dövlətlər Urmiya gölünün qurumasının qarşısını almaq üçün kifayət qədər vəsait ayırmışdı, lakin İran hökuməti bunu özünə xərclədi və Urmiya gölü üçün heç bir addım atılmadı".

Bunu etnik məsələlər və qadın hüquqları üzrə aktivist, "Ərk" insan hüquqlarının müdafiəsi təşkilatının həmtəsisçisi Jalə Təbrizli deyib.

---

■ Bakıda işləyənlərin orta aylıq əməkhaqqı artıb. Bakı şəhər Statistika İdarəsinin yaydığı məlumata əsasən, cari ilin yanvar-sentyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 13,5% artaraq 1065,5 manat təşkil edib.

---



■ Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo Səudiyyə Ərəbistanının "Əl-Nasr" klubu ilə müqavilə imzalamağa yaxındır.

Bu barədə "Marca" nəşri məlumat yayıb. Bildirilib ki, tərəflər arasında sövdələşmə yekunlaşmaq üzrədir. 38 yaşlı forvardın illik 200 milyon avro maaş olmaqla 2,5 mövsümlük müqavilə imzalaması gözlənilir.

---

■ 2022-ci il noyabrın 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 19 mlrd. 470.8 mln. manat təşkil edib. Bu, ötən ayla müqayisədə 1,6%, ilin əvvəlinə olan göstəricidən 16,8 % çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə kredit qoyuluşları 21,5% artıb.

# DTX-nın Naxçıvan əməliyyatı

**Son günlər Dövlət Təhlükəsizlik Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında aparılan əməliyyatlar nəticəsində külli miqdarda korrupsiya, mənimsəmə hallarının aşkarlanması gündəmin əsas mövzularındandır.**

Bu əməliyyatlar bir daha sübut etdi ki, qanun hamı üçün birdir və dövlət başçısının etimadını doğrultmayan, vətəndaşların sosial rifah halına təsir edən pozuntulara yol verən hər kəs layiqli cəzasını alacaqdır. Sirr deyil ki, Azərbaycan dövlətinin ən çox diqqət yetirdiyi həssas bölgələrdən biri məhz Naxçıvandır. Hər il dövlət büdcəsindən muxtar respublikaya 500 milyon manat vəsait ayrılır. Burada quruculuq, tikinti, abadlıq işləri birbaşa Prezident İlham Əliyevin siyasətidir. Bu məqsədlə Naxçıvana lazımi vəsait ayrılır. Lakin dövlət başçısının məlum siyasətinə kölgə salmağa çalışan, bu məsələdə sui-istifadə, mənimsəmə hallarına yol verənlər sərt cəzalandırılacaq.

Bu gün Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da korrupsiya, dövlət vəsaitinin mənimsənilməsi hallarına qarşı sərt tədbirlər görülür. Yəni bu, ümumi prosesdir, fövqaladə heç nə baş vermir.



Korrupsiyaya qarşı sərt mübarizə

■ **Bunu hafta.az-a Milli Məclisin deputatı Sahib Alıyev son günlər Naxşıvanda nazirlik və komitələrdə yüksək vəzifəli şəxslərin həbsləri, korrupsiya, yeyinti halları ilə bağlı aparılan istintaq araşdırmalarının ortaya çıxardığı istintaq faktları ilə bağlı açıqlamasında bildirib.**

O, xatırladıb ki, son bir neçə ildə Azərbaycanda xeyli yüksək vəzifəli şəxslər, nazirlər, icra hakimiyyəti başçıları, generallar korrupsiyada təqsrili bilinərək istintaqa cəlb olunub, həbs ediliblər. Deputat korrupsiya hallarına qarşı aparılan araşdırmaları Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirlərinin davamı kimi önə çəkib.

Bildirib ki, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirlərinə əsaslanan ardıcıl hüquqi və institusional islahatlar indən sonra da davam etdiriləcək. "Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da korrupsiya, dövlət vəsaitinin mənimsənilməsi hallarına qarşı sərt tədbirlər görülür. Oradakı həbslər digər bölgələrdə və strukturlarda analoji pozuntularla bağlı tədbirlərdən heç nə ilə fərqlənmir".

■ **Bunu isə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Cavid Osmanov bildirib.** Cavid Osmanov deyib ki, burada hər hansı siyasi çalar, siyasi məna axtarmağa ehtiyac yoxdur: "Araşdırmalar göstərib ki, Naxçıvana gətirilən mallarda külli miqdarda gömrükdən yayınma halları var. Məhz buna görə Naxçıvanda adambaşına düşən ümumi istehlak payı Azərbaycanın digər bölgələrindəki göstəricidən 10 faiz az göstərilib. Əslində isə bu 10 faizlik fərq Naxçıvana malların gömrükdən kənar gətirilməsi, "yeyinti" ilə bağlıdır". Deputat nəzərə çatdırıb ki, hər il Naxçıvana dövlət büdcəsindən 500 milyon manat dotasiya verilir, Naxçıvanın öz gəliri isə 180 milyon manat göstərilir: "Amma əslində bu, real rəqəm deyil.

Əgər yalnız gömrükdə 100 milyon manatdan artıq mənimsəmə faktı aşkarlanıbsa, ümumilikdə yeyinti və mənimsəmənin səviyyəsini təxmin etmək olar. Bu gün Naxçıvanda quruculuq, tikinti, abadlıq işləri birbaşa Prezident İlham Əliyevin siyasətidir. Bu məqsədlə Naxçıvana lazımi vəsait ayrılır, bu məsələdə sui-istifadə, mənimsəmə hallarına yol verənlər sərt cəzalandırılacaq. Digər dövlət qurumları kimi, Gömrük Komitəsinin də Naxçıvanda birbaşa tabeliyində olan idarə formalaşdırması normal praktikadır və burada təəccüblü nəsə yoxdur".

✍ ***Tahirə***

# Paşinyanı sülhə imza atmağa Fransa qoymadı



**Razi Nurullayev,**
Milli Məclisin deputatı,
Milli Cəbhə Partiyasının sədri

***Bölgəmizdə proseslər yenidən "isti mərhələ"yə qədəm qoyub. Atəşkəs pozulur, separatçılar fəallaşır. Ermənistanın havadarları İran və Fransanın timsalında anti-Azərbaycan fəaliyyətini genişləndirir. Brüssel görüşü Paşinyanın qəbuledilməz şərtləri səbəbindən təxirə salınır. Rus sülhməramlıları Azərbaycana qarşı hörmətsizlik edir... Bu siyahını uzatmaq da olar. Bir məqam xüsusi vurğulanmalıdır ki, baş verən proseslərin Azərbaycana mənfi təsirlərini neytrallaşdırmaq üçün rəsmi Bakı çox çevik diplomatik, hərbi və siyasi addımlar atır. Bu məsələləri "Həftə içi" olaraq Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayevlə müzakirə etdik:***

## Müsahib

***- Razi bəy, Azərbaycanın dövlət lideri Ermənistanın Fransanı danışıqlar prosesinə qatmaq şərtinə cavab olaraq dekabrın 7-də keçirilməsi nəzərdə tutulan V Brüssel görüşündən imtina etdi. Ermənilərin sülh masasına oturması üçün Avropa İttifaqından hansı təsirlərin göstərilməsi mümkündür?***

- Fransanın danışıqlar prosesinə təsiri və onun Azərbaycan üçün yarada biləcəyi təhlükə o qədər də güclü deyil. Fransanın Ermənistanı birtərəfli qaydada müdafiə etməsi danışıqlar prosesinə zərbə vurmaqla yanaşı, həm də sülh prosesini ləngidir, Ermənistanı Azərbaycanla sülh müqaviləsi bağlamaqdan uzaqlaşdırır. Fransa Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasına çalışsaydı, Ermənistana birtərəfli qaydada dəstək verməməli idi. Ermənistan 44 günlük müharibədəki məğlubiyyətdən sonra sülh müqaviləsi bağlamağa hazır idi. Paşinyan, erməni siyasətçiləri içərisində daha doğru düşünə və reallığı görə bilən siyasətçi idi. Onu bu yoldan Fransa daşındırdı. Paşinyanı sülh yolundan daşındırmaqla həm də Ermənistana problem yaratmış oldu. Birinci zərbəni Ermənistan 12-13 sentyabr tarixlərində aldı. Orada həlak olan erməni əsgərlərinin tam sayı bilinmir və cəsədləri də Ermənistan tərəfə tam olaraq verilməyib. Yəni Qafqazlardan min kilometrlərlə uzaqda yerləşən Fransanın bu gün Cənubi Qafqaza bu şəkildə müdaxilə etməsi bölgədəki sabitliyi bütövlükdə pozur. Fransa bu niyyətlərindən nə qədər tez geri çəkilsə, bir o qədər Cənubi Qafqazda, o cümlədən Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin və sabitliyin yaranmasına səbəb ola bilər.

Digər tərəfdən, Rusiya bu məsələlərə maneçilik yaradır. Rusiya sülhməramlılarının Qarabağda hansı fəaliyyət göstərdiyinin, birtərəfli qaydada Ermənistanın tərəfini tutduğunun şahidi oluruq. Bu gün Azərbaycan elə zəif ölkə deyil ki, nə Rusiyanın, nə də ki, Fransanın önündən çəkilsin. Bu baxımdan Fransa və Rusiya Azərbaycanla Ermənistan arasında sülh istəyirsə, Cənubi Qafqazda sülhün bərqərar olmasını istəyirsə, Ermənistanı birtərəfli müdafiə etməkdən çəkinməlidir. Fransa və Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Onların Azərbaycana qarşı hərəkətləri həm də öz öhdəliklərinə əməl etməmək və beynəlxalq hüququ ayaqlar altına alıb tapdalamaq anlamına gəlir.

***- Ermənistan sərhəddə atəşkəsi pozmaqda davam edir. Vəziyyət müharibə - antiterror əməliyyatını və Laçın yolunun bağlanmasını, nəzarətə götürülməsini nə dərəcədə zəruri edir?***

- Laçın dəhlizi 2020-ci il 10 noyabr razılaşmasından irəli gələn məsələdir. Ermənistan Azərbaycanın humanitar dəhliz kimi onlara təqdim etdiyi Laçın yolu vasitəsilə xain məqsədlər üçün separatçı qüvvələrə silah daşıyır. Onların Azərbaycanın suveren ərazisi olan Xankəndiyə bu humanitar dəhlizdən silah daşımaq üçün istifadə etməsi Azərbaycana tam hüquqi əsas verir ki, Laçın dəhlizini bağlasın. Hələ ki, Rusiya tərəfi buna təzyiq göstərir və razılaşmır. Rusiyanın Laçın dəhlizindən silah daşımaq, orada olan qanunsuz hərbi birləşmələrin gücləmməsi üçün bir resurs kimi istifadə etməsi Azərbaycan tərəfinin gözündən qaçmır. Bu da rus sülhməramlılarını və Rusiyanı bir vasitəçi kimi gözdən salır. Ona görə də Azərbaycanın bu saniyə belə Laçın dəhlizini bağlamaq hüququ var. Ümid edirəm, Azərbaycan bu hüququndan istifadə edəcək. Bizim bilmədiyimiz məqamlar ola bilər. Azərbaycan Prezidenti bu məsələlərlə bağlı daha çox məlumatlıdır. Ümid edirəm, Azərbaycan xalqının və siyasi qüvvələrin dəstəyini alaraq, bu qərarı da verəcək.Cənab Prezidentin yanında dayanıb onu müdafiə edəcəyik.

***- Rus hərbçiləri toponimlərimizin adını erməniləşdirir. Bununla bağlı Müdafiə Nazirliyi səviyyəsində bir neçə xəbərdarlıq da olub...***

- Rus sülhməramlılarının Qarabağdakı fəaliyyəti bizi qane etmir. Onların özbaşına hərəkət etməsi, bu əraziyə bir rus ərazisi kimi baxması, separatçı qüvvələrin tərəfini tutması, təbii ki, Azərbaycan insanlarını, Azərbaycan tərəfi narahat edir. Azərbaycan Müdafiə Nazirliyinin Rusiya Müdafiə Nazirliyindən Qarabağla bağlı məlumatlar yayılan zaman Qarabağda yerləşən və hazırda müvəqqəti olaraq rus sülhməramlılarının nəzarətində olan ermənilərin yaşadıqları ərazilərin ermənilərin qoyduğu uydurma erməni adları ilə yox, Azərbaycan toponimləri, adları ilə adlandırılmasını tələb etməsi də qulaqardına vurulur. Rusiya Müdafiə Nazirliyinin bu hərəkəti başadüşülən deyil, bu, Azərbaycan tərəfində qəzəb doğurur və bizi birtərəfli addım atmağa vadar etmək məqsədi daşıyır. Rusiya bilsin ki, Azərbaycan heç də tək deyil. Azərbaycan Prezidentinin də dediyi kimi, Türkiyə Ordusu Azərbaycan Ordusudur, Azərbaycan Ordusu da Türkiyə Ordusudur. Rusiya tərəfi Azərbaycanın ərazi bütövlüyünə, Azərbaycanın suverenliyinə hörmət etməlidir. Rusiya Prezidenti Vladimir Putinin "Qarabağ Azərbaycan ərazisidir və Azərbaycan öz ərazisində müharibə aparır" sözünü də unutmamalıyıq. Rusiya Azərbaycanın ərzi bütövlüyünü tanıyır.

Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda Azərbaycanın qəbul etdiyi toponimlərdən istifadə etməlidir. Bu bizə əsas verir ki, bu gün həssas durumda olan, qanunsuz hərəktlər edən və müxtəlif millətlərin respublikalarından ibarət olan Rusiyaya analoji addım atsın. Azərbaycan ona qarşı bu addımı atarsa, Rusiya bundan xoşlanmayacaq. Rusiya bizə hörmət etməsə, biz də Rusiyaya hörmət etməyə borclu deyilik.

> *Azərbaycan da birmənalı olaraq Laçın dəhlizini bağlamalıdır*

> *Rusiya bizə hörmət etməsə, biz də Rusiyaya hörmət etməyə borclu deyilik*

> *İranın müsəlman kimi deyil, xristian kimi hərəkət etməsi, Paşinyanı Quranın altından keçirməsi, Quranla qarşılaması İslam dininə təhqirdir*

***- Ermənistan Zəngəzur yolunun açılması ilə bağlı götürdüyü öhdəlikləri yerinə yetirmir. Bu istiqamətdə İranın təsirlərini, ölkəmizə qarşı sərgilədiyi aqressiyanı necə dəyərləndirmək olar?***

- Ermənistan Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini yerinə yetirməsə, Azərbaycan birmənalı olaraq Laçın dəhlizini bağlamalıdır. Azərbaycan tərəfi hazırda bu məsələləri düşünür, götür-qoy edir. Hələ də Laçın dəhlizini bağlamaması müəyyən obyektiv və subyektiv səbəblərə bağlıdır. Həmin obyektiv və subyektiv səbəblərin aradan qalxması ilə bağlı müəyyən işlər aparılır.

Bu gün ermənilər rus sülhməramlılarına güvənib təxribatlara əl atır və Zəngəzur dəhlizini açmaq istəmirlər. Təbii ki, Ermənistan əl-qolunu sallayıb Qarabağa gələ bilməz. Bu, Azərbaycanın müstəqilliyinə həqarətdir, Azərbaycan xalqına təhqirdir. Heç bir güzəşt ola bilməz. Azərbaycan Ermənistanın ərazisinə hücum edib Göyçə gölünü, Zəngəzuru, ümumiyyətlə öz qədim ərazilərini işğaldan azad edə bilər. Azərbaycanın buna hərbi gücü, siyasi iradəsi də var. Bu, təbii ki, Ermənistanın və onu müdafiə edənlərin xoşuna gəlməyəcək. Azərbaycanın da xoşuna gəlmir ki, işğalçı Ermənistan ərazilərimizi işğalda saxlasın, separatçıları, terroristləri Azərbaycan ərazisində, Xankəndidə saxlasın. Bu, birmənalıdır. Ona görə də Zəngəzur dəhlizi yoxdursa, Laçın dəhlizi də yoxdur.

İrana gəlincə, İranın müsəlman kimi deyil, xristian kimi hərəkət etməsi, Paşinyanı Quranın altından keçirməsi, Quranla qarşılaması İslam dininə təhqirdir. Bütün bu hərəkətlər İran İslam Respublikasına bağışlanmayacaq. Azərbaycan dövləti İrana hörmətlə yanaşıb, İranın milli maraqlarına hörmət edib, İranla dostluğunu davam etdirmək istəyib. İran Azərbaycanla bütün körpüləri yandırdı, yandırır və yandırmaqda davam edir. Başqa yolumuz yoxdur, əgər onlar körpüləri yandırırsa, bizim o körpünü bərpa etmək niyyətimiz yoxdur. Biz 30 ildə onu çox bərpa etmişik, İran isə yenidən yandırıb. İran körpüləri yenidən tikmək istəyəcəksə, barış əlini uzadacaqsa, günahını boynuna alacaqsa, İslam dövləti, müsəlman dövləti kimi hərəkət edəcəksə, o zaman biz düşünə bilərik. İranın bu gün Azərbaycana təsir etmək imkanları, Azərbaycanı işğal etmək, Azərbaycana hücum etmək imkanları sıfıra bərabərdir. İran ağılsız hərəkət edərsə, qarşısında Azərbaycan Ordusunu görəcək; "F-16"ları, "F-35"ləri qarşısında görəcək. Bakıdan İrana olan uçuş məsafəsi 550 kilometrdir. İsrail də İranın nüvə obyektlərinə raketlərlə zərbə vurmaq üçün məkan axtarışındadır. Ümid edirəm, İran elə səhv etməyəcək ki, Azərbaycan bu imkanı İsrailə yaratsın..

***- Azərbaycanın daxilində ictimai təşkilatların dialoqu və yeni siyasi konfiqurasiyanın qurulması istiqamətində atılan addımlar mövcud şəraitlə nə dərəcədə adekvatdır?***

- Azərbaycandakı ictimai-siyasi qüvvələrdən müxtəlif düşmən qüvvələr istifadə etməyə çalışıb və buna nail olub. İctimai-siyasi təşkilatlarımızdan, siyasi partiyalarımızdan istifadə edən, onları öz tərəfinə çəkə bilən İran və Rusiya olub. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən bu cəhdlərin qarşısı alınıb. Azərbaycanda siyasi partiyalar və qanunvericilik orqanları ilə iş şöbəsinin yaradılması bu məsələlərdə nizam-intizamın yaradılmasına səbəb olub. Bu şöbə Azərbaycandakı vətənpərvər, dövlətçi qüvvələri, eyni zamanda, xain qüvvələri aşkara çıxartdı. Hazırda kimin azərbaycançı, dövlətçi olduğunu, kimin də xarici qüvvələrin əlində alət olduğunu bilirik. Bu gün görürük ki, hansı qüvvələr İranın və digər ölkələrin Azərbaycana qıcadığı dişi sındırmağa çalışır, onlara qarşı çıxış edir, onları tənqid edir... Hansı qüvvələr isə kənarda qalır, ikili oyun oynayır və yaxud dəstəyini birbaşa həmin düşmən qüvvələrə ifadə edir. Bu o deməkdir ki, onlar azərbaycançı qüvvələr deyil, Azərbaycanı sevmirlər və onlar doğrudan da "5-ci kolon"dular. Bütün bu məsələlərin aşkara çıxarılmasında yeni yaranan siyasi konfiqurasiyanın rolu oldu.

✍ *Tahirə Qafarlı*



# Terror üzərində qurulan İran-Ermənistan əməkdaşlığı

**30 illik işğal və ikinci Qarabağ savaşı zamanı İranın Ermənistana açıq və gizli şəkildə dəstək verdiyi artıq heç kimə sirr deyil. Ortada olan faktlar bu tezisi bir daha təsdiqləyir. Bu günlərdə erməni mətbuatında erməni terrorçusu, ASALA-nın keçmiş üzvü Martiros Jamkoçyanın terrorçu və cani Monte Melkonyanla İran xüsusi xidmət orqanları arasında əməkdaşlıq faktlarına dair açıqlamaları Tehrandakı molla rejiminin əsa simasını, Azərbaycan ərazilərinin işğalına hansı münasibət sərgilədiyini bir daha ortaya qoydu.**

Martiros Jamkoçyan 21 iyun 1958-ci ildə Livanın paytaxtı Beyrutda anadan olub. Gənc yaşlarından erməni terror təşkilatı ASALA-ya qoşulub. Jamkoçyan 1981-ci il iyunun 9-da Cenevrənin mərkəzində türk konsulluğunun əməkdaşı Mehmet Yerquzu üç güllə ilə öldürüb. İsveçrə məhkəməsi terrorçunu 10 il müddətinə azadlıqdan məhrum edib. Jamkoçyan həbsxanadan çıxdıqdan sonra Ermənistana, oradan isə qanunsuz olaraq Qarabağa köçüb və burada Monte Melkonyanın komandanlığı altında olan dəstənin tərkibində etnik təmizləmə və dinc azərbaycanlı əhalinin qətlə yetirilməsi işlərində fəal iştirak edib. Komandirindən fərqli olaraq, Jamkoçyan haqq etdiyi cəzadan qurtula bilib və bu gün Ermənistanda yaşayır. Ermənistanın "Hraparak" qəzetinə müsahibəsində M.Jamkoçyan bildirib ki, 1992-ci ilin yazında terrorçu Monte Melkonyanla birlikdə Xocavənddə azərbaycanlılara qarşı etnik təmizləmə ilə məşğul olub.

"Orada yolboyu türklərin yaşadıqları kəndlər var idi. Və qrupumuz bu əraziləri "təmizləməyə" başladı. Dəstəmiz bütün regionda ən çox hərbi texnika və silaha malik idi", - deyə Jamkoçyan yada salıb.

"Qubadlının azad edilməsindən" əvvəl farslar Monteyə zəng etdilər, onunla hesablaşırdılar. Bu bir sirdir və mən onu bu gün sizə açıram. Farslar Monte ilə görüşmək üçün Qorisə gəldilər, onlar əməliyyatın hazırlanmasından xəbərdar idilər. Həmin vaxt biz Laçın şəhərində idik, oradan Zəngilana, Qubatlıya, Horadizə hücum etmək üçün tank diviziyamızın bir hissəsini buraya gətirmişdik. Farslar bu əməliyyatdan xəbər tutdular, bütün bunları kimin təşkil etdiyini öyrəndilər. Və o zaman İranın marağı ondan ibarət idi ki, bizimlə əməkdaşlıq etsinlər, heç nə olmasın, müharibə Arazın o tərəfinə keçməsin. Onlar zəmanət istəyirdilər və bizimlə danışıq aparmağa gəlmişdilər. Bu, 1993-cü ilin əvvəlində, yazda idi. Dostlarımız və düşmənlərimiz kimlə qarşı-qarşıya gəldiklərini bilirdilər. Ona görə də bizimlə hesablaşdılar, danışıqlar apardılar. Təbii ki, biz farslara təminat verdik ki, əsgərlərimiz İran istiqamətində və həmin istiqamətdə geri çəkilən azərbaycanlılara atəş açmayacaqlar. Belə də oldu", - Jamkoçyan açıqlamasında bildirib. Erməni terrorçunun əslində hamıya məlum olan bu "sirr"i Tehranın ikibaşlı siyasətinin daha bir göstəricisidir. "Orta Şərqdə, dünyada olan terror şəbəkələri İran-Ermənistan terror şəbəkəsi ilə birgə fəaliyyət göstərir. Livanda, Fransada, Kolifroniyada olan terrorçular Ermənistanı özlərinə mərkəz ediblər və İranın terror qrupları ilə çox intensiv əməkdaşlığı var".

■ **Bunu "Həftə içi"nə Milli Məclisin deputatı Asim Mollazadə hafta.az-a bildirib. Onun sözlərinə görə, İran-Ermənistan münasibətləri terror üzərində qurulub. İranın 44 günlük müharibə zamanı və sonralar da Azərbaycana qarşı əks mövqe bildirib.**

"Birinci Qarabağ müharibəsində İranın ermənilərlə sövdələşmə faktı - ASALA-nın rəhbərlərindən biri olan beynəlxalq terrorçu Monte Melkonyan Azərbaycan torpaqlarının işğalı zaman İranın xüsusi xidmət orqanlarının əməkdaşları kontekstində sübut olunur".

A.Mollazadə bildirib ki, bu gün İran və Ermənistan bir-biri ilə "bir millət iki dövlət kimi" davranırlar. Ermənilər tək bizim bölgəmizdə deyil, Orta Şərqdə olan erməni yaraqlı dəstələri Hizbullahla bir yerdə xiristianlara qarşı vuruşurlar.

"Maqraqlıdır ki, dünya terroru dəstəkləyən Ermənistan-İran "qardaşlığını" görmür, göz yumur. Bununla yanaşı İranın 100 minlərlə müsəlmanı yurdundan didərgin salmış, öldürmüş, mədəni-dini dəyərləri məhv etmiş Ermənistana dəstək verməsi onu göstərir ki, bu ölkə dini siyasi oyunlarında istifadə edir. İran islama, onun dəyərlərinə xidmət etmir. Ermənilərlə qardaşlıqları hər ölkənin riyakarlığını göstərir. Ermənilər müsəlmana, islama hörmətsizlik göstərir, eyni zamanda, islam dövləti sayılan İranla dost kimi davranır". A.Mollazadə bəyan edib ki, Ermənistanın bu istiqamətdə olan siyasəti bu xaqçox ciddi təhlükələr qarşısında qoyur. "Ermənistan belə davam edərsə, sülh istiqamətində addım atmazsa, terroru dəstəkləyən ölkələrə əməkdaşlıq edərsə, mövcudluğu sual altında qalacaq".

■ **"İran bölgədə sabitlik olmaması üçün dəridən-qabıqdan çıxır". Bu fikirləri isə Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Onun sözlərinə görə, İran bu gün Azərbaycana qarşı Ermənistan qədər, bəlkə də ondan çox düşmən mövqe sərgiləyir:**

"İranla Ermənistanı birləşdirən əsas məqam da budur". V.İskəndərov qeyd edib ki, Birinci Qarabağ müharibəsi zamanı İranın ermənilərlə sövdələşmə faktını - ASALA-nın rəhbərlərindən biri olan beynəlxalq terrorçu Monte Melkonyan Azərbaycan torpaqlarının işğalı zaman İranın xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşü haqda məlumatı da bura əlavə etsək mənzərə tam aydın olur: "Bir sözlə, İran Azərbaycana dost yox, düşmən münasibətindən heç zaman əl çəkməyib".

## İranın erməni terror qrupları ilə çox intensiv əməkdaşlığı var



Deputat xatırladıb ki, Azərbaycan hər zaman regionda və dünyada sülh, sabitlik və inkişaf üçün çalışıb: "Ölkəmiz bu siyasətə o qədər sadiqdir ki, hətta iki il öncə 44 günlük Vətən müharibəsinə qalib gəlməsinə baxmayaraq regionun sabitliyi və inkişafı üçün növbəti təşəbbüslərlə çıxış etdi. Özü də bu zaman region ölkələrinin hamısının, hətta Ermənistanın da bu prosesdə iştirakına etiraz etmədi. Bizimlə qonşu olan ölkələrin də bu xoşməramlı addıma müsbət cavab verəcəyini gözləmək olardı. Təəssüf ki, İranın timsalında biz bunun əksini gördük". Parlament üzvü vurğulayıb ki, İran bölgədə əbədi sülh və sabitliyin əldə olunmaması üçün dəridən-qabıqdan çıxır: "30 il müddətində bir yandan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan təcavüzkar Ermənistana dəstək verən İran bu gün də öz xislətinə sadiq qalmaqdadır. Bu ölkə indi də Qarabağ münaqişəsinin bitməsindən sonra iki ölkə arasında sülhün əldə edilməsini açıq-aşkar əngəlləyir, Zəngəzur dəhlizinin reallaşdırılmasına mane olmaq üçün bütün vasitələrə əl atır".

✍ *Tahirə Qafarlı*

# Türk Ordusu bu halda dayanacaq: 30 kilometrlik buferzona yaradılsın

***Türkiyənin son günlər İraq və Suriyanın şimalında "Pəncə-Qılınc" adı verilən hava əməliyyatı keçirərək, terror sığınacaqlarını vurması anti-Türkiyə mövqeli ölkələri, təbii ki, narahat edirdi. Bu günlərdə Türkiyənin aviazərbələrin ardınca bu bölgələrdə yerüstü əməliyyatlara başlayacağına dair söhbətlərin yayılması əsl dostla əsl düşmənin qara niqabını sifətlərindən çəkir. ABŞ son neçə ildir başdan-ayağa silahlandırdığı PKK-YPG-SDG silahlılarının ciddi müdafiəsinə qalxıb, Türkiyəni əməliyyatlara son qoymağa çağırıb və sair. Almaniya o tərəfdən odlanır, Fransa, İngiltərə bu yandan.***



## Təhlil

Bəziləri deyirdilər, Ukraynaya qarşı müharibə aparan Rusiya ilə əlaqələri davam etdirdiyi üçün ruslar türkiyənin əleyhinə çıxmayacaqlar, deyəsən bu fikir də boşa çıxmaqdadır. Onsuz da Moskva əvvəl başdan bildirirdi ki, Türkiyə Suriyada "səbitliyi pozacaq addımlardan çəkinməlidir" və sair. İndi isə terror yığınının başçılarının Rusiya rəsmiləri ilə görüşüb danışdıqları üzə çıxmaqdadır. Bu da öz növbəsində belə bir fikir yaradır: PKK-nı vaxtilə Moskva yaratmışdı, görəsən bu gün planı nədir rusların?

Suriyadakı Rusiya qüvvələrinin komandanı Aleksandr Çayko YPG-nin terrorçu lideri Mazlum Abdi ilə Hasekedə gizli görüşüb. Terrorun lideri rus komandirlə Türkiyənin mümkün quru əməliyyatını müzakirə edib. Ərəb mətbuatında əksini tapan xəbərlərdə Çayko mümkün bir əməliyyatı dayandırmaq üçün Suriya ordu birliklərinin Türkiyə sərhədinə yerləşdirilməsini bir daha gündəmə gətirib. Suriya qoşunlarının yerləşdiriləcəyi xətt Türkiyə sərhədinin 30 kilometrliyində ola bilər. Terrorçubaşı Abdi rus komandirlə görüşündə Moskvanı quru əməliyyatının qarşısını almağa çağırdıqlarını, türk tanklarının Suriyanın şimalına daxil olmasını onların mövcudluğu üçün "son döyüş" kimi qiymətləndirdiklərini bildirib.

YPG lideri Suriya əsgərlərinin Türkiyə sərhədinə yerləşdirilməsini də dəstəklədiklərini ifadə edərək, 2019-cu ildə də oxşar addımın atıldığını xatırladaraq, "Suriya əsgərlərinin artırılması ilə bağlı problemimiz yoxdur" deyib.

Digər xəbərlərdə Rusiya Prezidenti Vladimir Putinin Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyevin Türkiyəni ittiham edən sözləri önə çəkilir. Ankaranın İdlibdə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini iddia edən Lavrentyev Suriyanın yenidən qurulmasında müttəfiqi Çinin, eləcə də Rusiyanın iştirak edə biləcəyini bildirib. Məlumat üçün bildirək ki, Vaşinqtonda da "dərin narahatlığı" var. Zamanında özünün yaratdığı terror təşkilatı İŞİD-ə qarşı mübarizə bəhanəsi ilə illərdir YPG terrorçularına təlim və silah verən Vaşinqton Türkiyəni növbəti dəfə təmkinli olmağa çağırıb.

Bu arada qeyd edək ki, Pentaqon YPG terrorçularına dəstəklərinin davam edəcəyini deyib və hazırda Suriyanın şimalında 900-ə yaxın əsgər yerləşdirdiklərini bildirib. Amma bu deyəsən YPG terrorçularını qane etmir - Abdi ABŞ-dan quru əməliyyatının qarşısını almaq üçün daha sərt izahat tələb edib. Ankaraya qarşı sərt təzyiqlər Vaşinqtonun və Moskvanın siyasi kluarlarından BMT TŞ-nın iclasına çıxarılıb. Onsuz da ABŞ-ın dirijor çubuğu ilə "xor oxuyan" TŞ-da Amerikanın nümayəndəsi Suriyada hərbi gərginliyin artmasının "təhlükəli" olduğunu söyləyib və Türkiyədən gərginliyi dərhal azaltmağı tələb edib. Bəs nə baş verir, prosesin sonu nə ilə nəticələnənə bilər? Terror və təhlükəsizlik uzmanı Coşkun Başbuğ indiyədək davam edən "Pəncə-Qılınc" əməliyyatına münasibət bildirərkən deyib ki, bu proses Türkiyə üçün sürpriz deyil, çoxdan bunun baş verəcəyi gözlənilirdi. "İraqın, xüsusilə də Suriyanın şimalında əməliyyatların keçiriləcəyinə dair hələ "G20" sammitində ABŞ-a məlumat verildi. Bu prosesin başlanmasında isə əsas səbəb İstiqlal küçəsində baş verən terror hücumudur. İlk açıqlamalarda işin sonu Suriyanın şimalına söykəndi. Biz uzun müddətdir bölgədə marağı olan ölkələrə deyirik ki, Suriyanın şimalında terror qrupları toplaşıb, onlara qarşı tədbir görmək lazımdır və gəlin bunu birlikdə edək. Türkiyə heç vaxt prosesə tamaşaçı qalmayacaq. Türkiyə çox qərarlıdır və heç bir yerdən icazə alacaq deyil. Biz nə baş verdiyini dəqiq bilirik", - C.Başbuğ deyir.

■ **Yeditepə Universitetinin professoru Məsut Hakkı Caşın dünyada çox az ölkənin belə bir əməliyyatı həyata keçirə biləcəyini ifadə edərək belə deyib: "Trampın söz verdiyi kimi, ABŞ qoşunlarının geri çəkilmədiyini, Suriyanın şimalındakı terror yuvalarının boşalmadığını görürük.** İran sərhədindən Aralıq dənizinə qədər bölgə həbsdədir. Dünyada ancaq dörd-beş ölkənin keçirə biləcəyi əməliyyatı Türkiyə icra edir. Türk təyyarələri 160 kilometr içəri daxil olublar. Məncə bomba onların öz əlində partladı. Mən Yunanıstana da səslənirəm: görün türklər necə gəlir. Türkiyə bu cür əməliyyatları həftənin 7 günü və günün 24 saatında istənilən an həyata keçirə bilər. Biz görürük ki, siyasi irada və ordu birlikdədir", - cənab Çaşın deyib.

■ **Hərbi Hava Qüvvələri Kəşfiyyat İdarəsinin keçmiş rəisi Gürsel Tokmakoğlu isə bu prsesin ardıyla quru əməliyyatının gözlənildiyini bildirib:**

"Bu əməliyyat təbii ki, şərait uyğun gələndə həyata keçiriləcək. Bu şərtlər təkcə ABŞ-la bağlı deyil, həm də sahədə müəyyən nizamintizamın təmin edilməsi və hazırlıqların başa çatdırılması kimi dəyərləndirilməlidir". Bəs ABŞ Türkiyəyə hansı yolla təzyiq göstərə bilər? Axı F-35-ləri verməyən Vaçinqton F-16-ları da verməkdən vaz keçə bilər. Bu arada, F-16-ların Türkiyəyə satışı üçün ABŞ-ın təsdiqinə ehtiyacı olan ABŞ Konqresinin bəzi üzvlərindən əməliyyata qarşı çıxan reaksiyalar gəlməyə başlayıb. Mümkün quru əməliyyatı qiymətləndirilirkən F-16-ların satışı kimi məsələlərin nəzərə alınmayacağını söyləyən Tokmakoğlu, "Türkiyə F-16-ların şərt altında təhvil verilməsini onsuz da qəbul etməyib" deyir.

> "
>
> *Türkiyə istəsə Suriya hava məkanından istifadə edə bilər, Adana razılaşması və BMT Konvensiyasının 51-ci maddəsi buna imkan verir*
>
> *Türkiyəyə beynəlxalq təzyiq göstərməyə çalışırlar, bəlkə də hansısa sanksiyaların tətbiqinə zəmin yaradırlar*
>
> *Əsədlə görüş olarsa, PKK-nın məkanını daraltmaq ön plana çıxa bilər*

Bəs Rusiyanın bu məsələyə münasibəti necədir, axı Suriyanın şimalı məhz bu ölkənin hərbçilərinin nəzarətindədir. Rusiya prezidenti Vladimir Putin və Ərdoğanın avqustun 5-də Soçidə keçirdikləri görüşdə Suriya ilə bağlı razılığa gəldiyini bildirən Tokmakoğlu, "Əsas məqsəd Suriyadan ABŞ əsgərlərini və nüfuzunu çıxarmaqdır. Bununla bağlı tənzimləmələr davam edir" deyib. Tokmakoğlu Rusiyadan həftə sonu hava kampaniyası üçün heç bir tələbin olmadığını bildirib və əlavə edib ki, sitat: Onsuz da Rusiya belə bir əməliyyatı təsdiq edən orqan deyil. Türkiyə istəsə Suriya hava məkanından istifadə edə bilər, Adana razılaşması və BMT Konvensiyasının 51-ci maddəsi buna imkan verir. Həmçinin, yalnız hava əməliyyatlarının aparılması daha məqbul və risksizdir.

■ **Təhlükəsizlik və xarici siyasət üzrə analitik Cahit Armağan Dilək isə hava əməliyyatlarının daha yığcam hədəfləri seçdiyi üçün beynəlxalq ictimaiyyətdə daha az reaksiya doğurduğunu, quru əməliyyatlarının isə beynəlxalq hüquq baxımından fərqli keyfiyyətdə ola biləcəyini deyib.** O, PKK-YPG ünsürlərinin Türkiyənin Azezdəki bazasına və nəhayət, Karkamışa son hücumlarını Türkiyəyə cavab vermək cəhdi, eləcə də quru əməliyyatına məcbur etmək kimi qiymətləndirir və bunları deyir: "Axı onların TSK-ya qarşı durması qeyri-mümkündür. Əsgərlər içəri girəndə hamısını dağıtırlar, bunu bilirlər. Amma Türkiyəyə beynəlxalq təzyiq göstərməyə çalışırlar, bəlkə də hansısa sanksiyaların tətbiqinə zəmin yaradırlar".

Bölgədə onsuz da TSK qüvvələri olduğundan quru əməliyyatı üçün Türkiyə ərazisindən yeni hərbi birləşmənin göndərilməsinə ehtiyac olmaya biləcəyini deyən Dilək "Oradakı əsgərlərimiz başqa hədəflərə yönəldilə bilər. Çünki orada - PKK və PYD-yə nəzarət edə biləcəyimiz mövqelərdə türk əsgərləri var" deyib. Türkiyə üçün ən böyük təhlükənin qonşu ölkələrdəki federal strukturlar olduğuna diqqət çəkən Dilək, İraqda gec olduğunu, lakin Suriyada bunun qarşısını almaq lazım olduğunu bildirib.

■ **Təhlükəsizlik sahəsində ekspert Həsən Səlim Özertəm növbəti hədəflərdən birinin Menbic ola biləcəyini düşünür. Onun fikrincə, Ankaradan əvvəlki açıqlamalarda PKK-nın Suriya qolu olaraq xarakterizə edilən YPG ünsürlərinin təmizlənməsi üçün başlanacaq əməliyyatın hədəfi kimi Tel Rıfat və Menbic göstərilmişdi.**

Türkiyənin burada 30 kilometr dərinlikdə təhlükəsiz zona yaratmaq istədiyi barədə də məlumatlar vardı. 2018-ci ildən bəri Menbicin həm ABŞ, həm də Rusiya ilə davamlı danışıq apardığı bir bölgə olduğunu bildirən Özertəm, PKK-nın hələ də öz silahlılarını buradan çıxarmadığını və Türkiyə rəsmilərinin buna işarə etdiyini bildirib. Suriyada problemlərin həlli üçün hazırda müxtəlif kanallardan bir neçə fərqli prosesin getdiyini xatırladan Özertəm, Əsədin bütün bu danışıqlardan yararlanaraq, Rusiya və İranın dəstəyini alıb Suriyada defakto mövqeyini genişləndirməyə çalışdığına diqqət çəkir. Özertəm sözlərini belə davam etdirib: "Əsədlə görüş olarsa, PKK-nın məkanını daraltmaq ön plana çıxa bilər. İdlib Əsəd üçün ilk bölgələrdən biridir. İdlibdə gələcəkdə hansı sabitlik və nizam bərqərar olacaq? Hələlik bunun məğzi açıqlanmır.

Əsədlə Türkiyə arasında aparılacaq dialoq ən azından PKK-nın önümüzdəki dövrdə bölgədəki məkanının məhdudlaşdırılmasında təsirli olacaq". Nəticə olaraq, Türk ordusunun Suriyanın şimalında başlaması ehtimal olunan hərbi əməliyyatları xarici dünyada sadəcə sözlə cavab veriləcək və bu da, güman ki, "demokratiyanı qorumaq üçün" ediləcək. Planlar artıq hazırdır və tərəflərin hər biri ilə razılaşdırılıb. Plan odur ki, Suriyanın şimalında Türkiyənin tələb etdiyi 30 kilometr dərinliyində bufer zona yaradılmalıdır. Yalnız bu yolla Türkiyənin genişmiqyaslı hərbi əməliyyatının qarşısını almaq və PKK-YPG-SDG birliyini xilas etmək mümkündür...

✍ **Vüsal Tağıbəyli**

---

***Cari ildən maliyyələşdirilməsi nəzərdə tutulmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" üzrə xərclər növbəti ildən təqribən 2,1 dəfə artırılıb ki, bu da Dövlət Proqramı çərçivəsində növbəti il daha çox gəncin dövlət proqramının imkanlarından istifadə etməsinə şəraitin yaradılması ilə əlaqədardır. Bu barədə Hesablama Palatasının Dövlət Neft Fondunun 2023-cü il büdcə layihəsinə rəyində əksini tapıb.***

# Xaricdə təhsil alacaq tələbələrin illik xərci açıqlandı

Qeyd edilib ki, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" xərc maddəsi üzrə 2023-cü ildə 36,7 mln. manat proqnoz müəyyən edilib ki, bu da 2022-ci il proqnozundan 18,8 mln. manat və ya 105,0%, gözlənilən icra göstəricisindən isə 19,1 mln. manat və ya 108,5% çoxdur. Cari ildə bu xərc istiqaməti üzrə 17,9 mln. manat vəsait ayrılsa da, 9 aylıq icra göstəricilərinə əsasən vəsait istifadə edilməyib.

Azərbaycan Respublikası Prezidentinin 28.02.2022-ci il tarixli 3163 saylı Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edilib ki, həmin



Sərəncamın 7-ci bəndi ilə Neft Fondu birinci maliyyə mənbəyi kimi müəyyən edilib. Dövlət Proqramı ilə 15 prioritet ixtisas sahəsi (informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı) üzrə təhsil müəssisələrində bakalavriat və əsas etibarı ilə magistratura səviyyələrində Azərbaycan gənclərinin təhsili üçün imkan yaradılıb. Proqramın əhatə etdiyi dövrdə hər il üzrə 400 yer nəzərdə tutulub ki, həmin yerlərdən 320-si magistratura, 80-i isə bakalavr təhsili üçün ayrılıb.

Sərəncamın 2.1.-ci bəndinə əsasən Proqramın əlaqələndirilməsini təmin edən Elm və Təhsil Nazirliyi tərəfindən 2023-cü ildə bu proqramın maliyyələşdirilməsi üçün ümumilikdə 21,6 mln. ABŞ dolları və ya yaxud 36,7 mln. manat vəsaitin ayrılması sifariş edilib. Hər bir tələbə üzrə orta illik xərc 51,0 min manat proqnozlaşdırılıb.

---



■ **Çexiyada Rusiyanın bu ölkədəki səfirliyinin qazının, elektrik enerjisinin və suyunun kəsilməsinə çağırış edən petisiya başladılıb. Sözügedən petisiya "petice.com" saytında yerləşdirilib.**

Layihə rəhbərləri qeyd edib ki, onlar bununla Rusiya səfirliyinin əməkdaşlarının Kiyevdə qaranlıqda qalan sakinlərin nə hiss etdiklərini anlamasını istəyirlər. Bildirilir ki, Rusiya ordusu artıq bir neçə həftədir Ukrayna şəhərlərini və kəndlərini raket atəşinə tutur. Atəş nəticəsində ev, məktəb, uşaq bağçaları, mağaza və fabriklərlə yanaşı, xəstəxanalar da işıqsız qalıb. "Rusiyaya məxsus bütün əmlakın qazının, işığının və suyunun kəsilməsini tələb edirik", - deyə petisiyada qeyd olunub.



■ **2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın ümumi ixracı 34,7 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 2,4 milyard ABŞ dolları təşkil edib. 2021-ci ilin on ayı ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 16,2% artıb.**

Bu ilin yanvar-oktyabr ayları ərzində kimya sənayesi məhsullarının ixracı 2 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 25,7%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 24,5%, çay ixracı isə 48,9% artıb. Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 672,1 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,5%-ini təşkil edib.



■ **Serbiya və Monteneqro millisinin sabiq futbolçusu Duşan Petkoviç saxlanılıb. 48 yaşlı futbol veteranı Niderlandda həbs olunub. O, 115 kq kokain qaçaqmalçılığında şübhəli bilinir. Petkoviç narkotik vasitələrin istehsalı və satışı ilə məşğul olan cinayətkar qrupun üzvü kimi saxlanılıb.**

Hüquq-mühafizə orqanları bu qrupun Cənubi Amerikadan Rotterdam limanına, oradan da Arlona narkotik vasitələr gətirməyə cəhd edib. Serbiya, Belçika, Niderland və Lüksemburqun xidmətləri sayəsində 115 kq narkotik müsadirə olunub. Saxlanılan şəxslərdən böyük məbləğdə pul, silah və digər narkotik vasitələr də götürülüb. Petkoviçin dindirildikdən sonra buraxıldığı barədə xəbərlər yayılsa da, rəsmi təsdiqini tapmayıb.



■ **Sabiq deputat, Milli Şuranın üzvü Gültəkin Hacıbəyli barəsində həbsili axtarışla bağlı qərar ləğv olunub. Bu barədə APA-ya Gültəkin Hacıbəylinin vəkili Bəhruz Bayramov məlumat verib.**

O bildirib ki, Gültəkin Hacıbəyli Nəsimi rayon Məhkəməsinə gətirilib və sərbəst buraxılıb: "Ondan xüsusi ittiham qaydasında şikayət edən Leyla Arif adlı şəxsdir. Leyla Arif sosial şəbəkə hesabında Gültəkin Hacıbəylinin ona böhtan atdığını bildirib və barəsində şikayət verib". Gültəkin Hacıbəyli ölkədə olmadığına görə, onun barəsində həbsi axtarış elan olunub. Hazırda dayandırılmış icraat yenilənib və hakim Elməddin Hüseynovun icraatında olan iş üzrə məhkəmə prosesi dekabrın 8-nə təyin edilib.



■ **Bu ilin yanvar-oktyabr aylarında Bakı üzrə ticarət dövriyyəsinin həcmi 2021-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 4,6 faiz artaraq 19306,6 mln. manat olub.**

Bakı Statistika İdarəsindən verilən məlumata görə, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz artaraq (təqribən 5 faiz) 10 030,1 mln. manata, qeyri-ərzaq məhsullarının həcmi isə 4,4 faiz artaraq 9 276,5 mln. manata bərabər olub. "İstehlak məhsullarının 36,1 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 44,5 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 19,4 faizi isə paytaxtın məhsul bazarlarında satılıb", - məlumatda qeyd olunur.



■ **Azərbaycan və Pakistan bir sıra məhsulların gömrük rüsumlarından azad edilməsi ilə bağlı danışıqlar aparır. Bunu Pakistan-Azərbaycan iqtisadi əməkdaşlıq palatasının (PakAzCham) prezidenti Cavaid Bhatti deyib.**

Onun sözlərinə görə, hər iki ölkə qarşılıqlı ticarət dövriyyəsinin artırılması üçün böyük potensiala malikdir və bu gün Azərbaycan məhsullarının Pakistan bazarına daxil olması üçün danışıqlar aparılır. "Burada söhbət tekstil məhsulları və digər məhsul növlərindən gedir. Həmçinin, pambıq və kosmetika məhsullarının gömrük rüsumlarından azad edilməsi planlaşdırılır", - deyə o bildirib. PakAzCham prezidenti qeyd edib ki, yaxın zamanlarda tikinti sahəsi üzrə pakistanlı nümayəndə heyətinin Azərbaycana səfəri planlaşdırılır.

# Rus bölməsində Azərbaycan dilində tədris



***Məlum olduğu kimi, 2022-2023-cü tədris ilindən başlayaraq Azərbaycanın orta ümumi təhsil məktəblərinin rus bölməsində "Azərbaycan tarixi" fənni dövlət dilində tədris olunur. Amma bu addım hələlik ölkədə fəaliyyət göstərən orta ümumi təhsil məktəblərinin bütün rus bölmələrini əhatə etmir. Belə ki, elm və təhsil naziri Emin Əmrullayevin müvafiq əmrinə əsasən, bu tədris ilində ölkənin yalnız 20 ümumi təhsil müəssisəsinin tədris digər dillərdə aparılan bölmələrinin V siniflərində "Azərbaycan tarixi" fənni dövlət dilində tədris ediləcək.***

## Müzakirə



**Kamran Əsədov,**
təhsil eksperti

Cari ildə 20 məktəbdə pilot layihənin nəticələri təhlil edildikdən sonra növbəti il üçün qərar qəbul ediləcək. Bəs, görəsən, rus bölməsində Azərbaycan dilində tədrisin genişləndirilməsi nə dərəcədə vacibdir? Hazırda bu bölmə üzrə hansı fənlər Azərbaycan dilində tədris olunur və gələcəkdə hansı fənlərin əlavə olunacağı gözlənilir? Mövcud normativlərə görə rus bölməsində Azərbaycan dilində tədris neçə saat olmalıdır?

■ **Mövzu ilə bağlı qəzetimizə danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, hazırda Azərbaycanın 4432 orta ümumtəhsil məktəbində 1.6 milyon şagird təhsil alır:**

"Şagirdlərin bölmələr üzrə təhsilalma saylarına baxsaq görərik ki, 1.4 milyon şagird Azərbaycan bölməsində təhsil alır. 4432 məktəbin 340-da rus bölməsi fəaliyyət göstərir. Ümumilikdə, ölkə üzrə 90 min şagird rus bölməsində təhsil alır. Eyni zamanda, 50 minə yaxın şagirdimizə xarici dil kimi rus dili tədris olunur. Azərbaycan Respublikasının Konstitusiyasında və təhsil haqqında qanunda qeyd olunur ki, hər bir şəxs öz ana dilində, eyni zamanda istədiyi dildə təhsil almaq hüququna malikdir. Azərbaycanda bu birmənalı şəkildə təmin olunur.

Qeyd edim ki, Azərbaycanda rus bölməsi üzrə tədrisin təşkili qaydaları mövcuddur. Həmin sənəddə pedaqoji normalar təsbit olunub. Yəni, birmənalı şəkildə orta ümumtəhsil məktəblərində tədris yükünün müəyyən edilməsi ilə bağlı elm və təhsil nazirinin qərarı olur. Bu normativ akt hər il yenilənir və siniflər üzrə dərs yükü müəyyən olunur. Dünya təcrübəsində də qeyd edilir ki, həmin ölkənin dili, tarixi və coğrafiyası əsasən həmin ölkənin dilində tədris olunur. Azərbaycanda isə ona görə zəruridir ki,

*"Dünya təcrübəsində də qeyd edilir ki, həmin ölkənin dili, tarixi və coğrafiyası əsasən həmin ölkənin dilində tədris olunur*

*Ayrı-ayrı fənlərin tədris dilini əvəz etmək düzgün deyil*



**Nadir İsrafilov,**
təhsil eksperti

biz ali məktəblərə uşaqların qəbulunun nəticələrində görürük ki, rus bölməsinin hətta yüksək bal toplayan abituriyentləri dövlət dilindən o qədər də yaxşı imtahan vermirlər. Bunun birinci səbəbi rus bölmələrində "Azərbaycan dili" fənninin tədris saatının az olması idi.

Bununla bağlı nazirlik normativ akta dəyişiklik etdi və "Azərbaycan dili" fənninin dərs saatı rus bölməsində 2-dən 3 saata qaldırıldı. Eyni zamanda, artıq "Azərbaycan tarixi" fənni də Azəbaycan dilində tədris olunur. Çünki Azərbaycan ərazisində yaşayan hər bir vətəndaş Azərbaycan dilini mükəmməl bilməli, danışmalı, dinləməli, anlamalı, özünü ifadə etməyi bacarmalıdır. Eyni zamanda Azərbaycan tarixi ilə bağlı müfəssəl biliklərə malik olmalıdır. Dünyanın bütün ölkələrində belədir, hər bir xalq öz dilini və tarixini öz dilində çatdırmağa çalışır. Fikrimcə, bu addım milli vətənpərvərlik, milli düşüncə baxımından müsbət nəticəsini göstərəcək.

Ola bilər ki, gələcəkdə "Azərbaycan coğrafiyası" fənni də Azərbaycan dilində tədris olunsun. Amma bu istiqamətdə addım atılacaqsa, bu sahə üzrə yaxşı mütəxəssisin olması da vacibdir. İlk növbədə əsas məsələ rusdilli kontingentlə işləyən müəllimin olmasıdır. Düzdür, ölkədə kifayət qədər cografiya müəllimi var. Amma gəlin görək bu müəllimlərin mütləq əksəriyyəti rus dilini bilirmi? Təbii ki, bilmir. Ona görə biz ilk növbədə rusdilli kontingentlə işləyə biləcək mütəxəssis məsələsini həll etməliyik".

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Nadir İsrafilov isə qeyd edib ki, Azərbaycan müstəqillik qazanandan sonra orta məktəblərdə rus dili xarici dillər qrupuna daxil edilib: "Bir müddət rus dilinə qarşı bəzi şəxslər tərəfindən radikal fikirlər səsləndi.** Əksər məktəblərdə rus dili tədris planından çıxarıldı və fakültativ hesabına tədris olunmağa başladı. Bir çox məktəblərdə ümumiyyətlə, tədris olunmadı. Bu, ona gətirib çıxardı ki, bizim rus dili müəllimləri müəllimlik peşəsini tərk etdilər və başqa sahələrə keçdilər. Hazırda kadr çatışmazlığı reallıqdır. Yaranan problemi aradan qaldırmaq üçün uşaqları daha çox Azərbaycan bölməsinə cəlb etmək və rus bölməsində "Azərbaycan tarixi", "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan coğrafiyası" fənlərinin Azərbaycan dilində keçirilməsi ilə bağlı təkliflər səsləndi. Hesab edirəm ki, bu, məsələnin həlli deyil. Uşaq həm o dildən, həm bu dildən olacaq. Digər tərəfdən düşünürəm ki, rus və ya digər tədris bölməsinin uşağını "Azərbaycan tarixi"ni və ya başqa fənni Azərbaycan dilində keç" deyə məcbur etmək hüquq pozuntusudur. "Azərbaycan tarixi" fənninin tədrisinin dövlət dilinə keçirilməsinə gəlincə, bir neçə il əvvəl rus bölməsində təkcə bu fənnin deyil, Azərbaycan ədəbiyyatının, eləcə də coğrafiyanın tədrisi ilə bağlı təkliflər səslənirdi. Hesab edirəm ki, bu yanaşma kökündən yanlışdır. Ayrı-ayrı fənlərin tədris dilini əvəz etmək düzgün deyil. Bundan yaxşı heç nə gəlməyəcək. Başqa bir məsələ odur ki, rus bölməsində Azərbaycan dilinin tədrisini gücləndirmək, onun öyrənilməsi üçün saatların əlavə edilməsi lazımdır. Təbii ki, hər bir tələbə dövlət dilini mükəmməl bilməlidir".

***Sevinc***

# Bəsitçay Qoruğu ilə bağlı mühüm qərar

**Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsi və sanitariya-mühafizə zonası təsdiq edilib. Bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsinin və sanitariya-mühafizə zonasının təsdiq edilməsi barədə" qərarında əksini tapıb.**



Qərara əsasən, Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğu səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini (Şərq çinarı, Qafqaz dağdağanı, Yunan qozu, Qızılxallı forel və s.) təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılmış təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

Qoruq Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyun tarixli 172 nömrəli Qərarı ilə Zəngilan rayonunun inzibati ərazisində yaradılmışdır və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli Sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində fəaliyyəti bərpa edilib. Qoruq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını rəhbər tutur. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Qoruğun təşkili üçün ayrılmış torpaq sahələri onun daimi istifadəsinə verilir.

Qoruğun ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu əraziyə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

Məqsədli istifadəsinə və hüquqi rejiminə görə Qoruğun torpaqları təbii qoruq təyinatlı torpaqlara daxildir. Qoruğun torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağandır.

Qoruğun torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədilə həmin ərazilərin sanitariya-mühafizə zonaları müəyyən edilir. Bu zonaların müəyyən edilməsi və rejim qaydaları "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə müəyyən olunmuş formada həyata keçirilir. Qoruq dövlət büdcəsi, büdcədənkənar vəsaitlər, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri və qanunla qadağan edilməyən digər maliyyə mənbələri hesabına maliyyələşdirilir.

Qoruğun pasportu Nazirlik tərəfindən hazırlanır. Pasportda Qoruğun əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququnu təsdiq edən sənədin qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər aparılır. Qoruğun pasportu Nazirlikdə dövlət qeydiyyatına alınmaqla Qoruqda saxlanılır. Qoruqda təbiət qoruq fondunun vəziyyətinin qiymətlən- dirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

Qoruq Nazirliyin verdiyi əmlaka, Nazirliyin və Qoruğun adı əks olunmuş möhürə, müvafiq blank və ştamplara, bayraq və embleme malikdir.

Qoruğun fəaliyyət istiqamətləri aşağıdakılardır:

- genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin, təbiət komplekslərinin və obyektlərinin təbii şəraitdə bərpa edilərək sağlamlaşdırılmasını və təbii vəziyyətini qoruyub saxlamaq məqsədilə təbiət ərazilərinin mühafizəsini həyata keçirmək;
- Qoruğun ərazisində ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi çərçivəsində ekoloji monitorinqini həyata keçirmək, müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin bərpasını təmin etməklə regionun "yaşıl zona"ya çevrilməsinə töhfə vermək;
- elmi tədqiqatları təşkil etmək və aparmaq, "Təbiət Salnaməsi"ni tərtib etmək;
- təsərrüfat obyektlərinin və digər obyektlərin yerləşdirilməsi layihələrinə və sxemlərinə dair dövlət ekoloji ekspertizasında iştirak etmək;
- ətraf mühitin mühafizəsi sahəsində elmi kadrların və mütəxəssislərin hazırlanmasına kömək etmək.

***Hafta.az***



# Rusiya və Qərb arasında neft müharibəsi

***Son günlər Avropada ən çox müzakirə edilən məsələlərdən Rusiya neftinin satışında yuxarı həddin müəyyənləşdirilməsi ilə bağlıdır. Sözügedən məqam Avropa İttifaqına üzv dövlətlər arasında ciddi fikir ayrılıqlarılan səbəb olub. Bloomberg yazır ki, Avropa İttifaqı Rusiya neftinin qiymətinin bir barel üçün 60 dollar səviyyəsində müəyyən edilməsi imkanını müzakirə edir. Agentliyin məlumatına görə, Aİ ölkələri və G7-nin üzvləri arasında Rusiya Federasiyasından neftin qiymətinin məhdudlaşdırılması ilə bağlı razılığa gəlmək üçün belə bir qiymətin tətbiqini nəzərdən keçirir.***

Daha əvvəl bildirilmişdi ki, Avropa İttifaqı (Aİ) ölkələri qiymət tavanı ilə bağlı fikir ayrılıqlarını həll edə bilməsələr də, Avropa Komissiyası (AK) çətin ki, Rusiya xammalının dəniz yolu ilə idxalına embarqonun qoyulması müddətini təxirə salsın. .

Noyabrın 30-da RİA Novosti-nin Brüsseldəki mənbəsi bildirib ki, Polşa və Baltikyanı ölkələrin onu aşağı salmaq çağırışlarına baxmayaraq, Aİ çox güman ki, Rusiya neftinin qiymətini bir barel üçün 62 dollar səviyyəsində müəyyən edəcək. Sentyabrın birinci yarısında ABŞ Xəzinədarlığının mətbuat xidməti bəyan edib ki, ABŞ G7-dəki müttəfiqləri (Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, Fransa, Yaponiya və ABŞ) və Avropa İttifaqı ilə birlikdə dekabrın 5-də Rusiya neftinin, fevralın 5-də isə neft məhsullarının dəniz daşınmasına qadağa qoyacaq.

■ **Rusiya baş nazirinin müavini Aleksandr Novak şıg hesab edir ki, Rusiya neftinin qiymət tavanı bu tavanın səviyyəsindən asılı olmayaraq qəbuledilməzdir. O, IV Rusiya-Çin Enerji Biznes Forumunun kuluarlarında bildirib ki, Rusiya bu məsələdə sərt mövqe tutur.**

"Burada kifayət qədər sərt mövqemiz var, mən bu barədə artıq bir neçə dəfə danışmışam. Tavan nə olursa olsun qiymətlər olacaq. Yüksək olsa belə, müqavilələrin bağlanması baxımından bu, prinsipcə qəbuledilməzdir", - deyə Novak bildirib. Novak çıxışı zamanı qiymət həddinin tətbiqinin bir çox risklər yaradacağı ilə bağlı fikirlərini bildirib. "Son məhdudiyyətlər, qiymət həddinin qəbulu ilə bağlı qəbul edilmiş qərarlar - bütün bu hərəkətlər sənayenin fəaliyyəti üçün böyük risklər yaradır, enerji resurslarının və sənayedə investisiyaların çatışmazlığına səbəb olur, nəinki neft sənayesində. Bu, gələcəkdə Qərb ölkələrinin öz qaydalarını tətbiq etmək istəyəcəkləri istənilən mübadilə əmtəəsinə təsir edəcək", - o hesab edir.

*"Rusiya bu təşəbbüsə "tavan"ı dəstəkləyən ölkələrə neft satışını qadağan etməklə cavab verə bilər*

Rusiya baş nazirinin müavini Qərbin sanksiyalarının düşünülməmiş olduğu qənaətindədir. "Bu, müqavilələrin bağlanması baxımından prinsipcə qəbuledilməzdir. Biz bazara uyğun işləyəcəyik" deyən Novak xəbərdarlıq edib və əlavə edib ki, Rusiya bu məsələdə mövqeyini yumşaltmayacaq. Rusiya neftinə marjinal qiymətlərin tətbiqi Qərb ölkələri üçün mənfi nəticələrlə nəticələnə və Moskva ilə iqtisadi qarşıdurmada qüvvələr balansını dəyişə bilər. Bu barədə Amerikanın "The National Interest" jurnalı məlumat yayıb.

■ **Jurnalın köşə yazarı Metyu Mey deyir ki, hiyləgər məntiqə baxmayaraq, G7 planı ya qlobal enerji bazarlarında qarışıqlığa səbəb olacaq, ya da Rusiya yanacağının satışından əldə edilən gəlirlərin azalmasına minimal təsir göstərəcək.**

Eyni zamanda, Avropa ölkələri hələ də tək marjinal qiymətlər çubuğunda öz aralarında razılığa gələ bilmirlər. Rusiya xammalının marjinal qiymətləri ideyasının özü nikbinliyi ruhlandırmır, çünki bu tədbir ABŞ üçün əlverişsiz olan iqtisadi çoxqütblülüyə gətirib çıxaracaq. Eyni zamanda, Rusiya bu təşəbbüsə "tavan"ı dəstəkləyən ölkələrə neft satışını qadağan etməklə cavab verə bilər.

"Rusiya qiymət həddi iştirakçısı olan ölkələrə neft ixracını dayandırmaqla bağlı hədələrinə əməl etsə, Brent markalı yanacağın qiyməti bir barel üçün 380 dollara qədər yüksələ bilər. Əgər bu baş verərsə, Qərbin Moskvaya qarşı iqtisadi kampaniyasının dəyəri hamı üçün qeyri-davamlı ola bilər", - deyə Mey JPMorgan bankının iyul ayı proqnozuna istinad edib.

■ **Neftin qiymətinin 82-85 dollar/barel olması dünya bazarı üçün etibarlı dəstək olsa da, çökdü. Bunu "Milliyet"ə müsahibəsində iqtisadçı Hikmət Baydar deyib.**

"82-85 dollar markası möhkəm dayaq idi. Qarşıdakı dövrdə qiymətlərin daha da ucuzlaşması ehtimalı artır. Bu, Çinin anti-COVID tədbirləri, tənəzzül qorxusu, həmçinin ABŞ-ın qara qızıldan Rusiyaya qarşı sanksiya silahı kimi istifadə etmək istəyi ilə bağlıdır", - deyə Baidar bildirib.

Onun sözlərinə görə, indi yaxın gələcəkdə neftin qiymətinin bir barel üçün 75 dollara düşə biləcəyi ehtimalı var. Ümumiyyətlə, müxtəlif istiqamətlərdə kəskin qiymət dalğalanmalarına hazırlaşmağa dəyər. Eyni zamanda, ABŞ üçün neftin ucuz olması Rusiyaya qarşı sanksiyalar mexanizmi kimi faydalıdır. Lakin digər tərəfdən, OPEK dövlətlərin istəklərinə qarşı çıxır. O əlavə edib ki, ilin sonuna neftin bir barelinin qiyməti 69 dollardan 89 dollara qədər dəyişə bilər. Eyni zamanda, belə geniş çeşid bazarda daimi kəskin hərəkətlərin olması ilə bağlıdır.

Qeyd edək ki, Aİ üzvüləri arasında Rusiya neftinin qiymətinin yuxarı həddinin daha aşağı olmasında ən çox israr edən ölkə Polşadır. Varşava bu həddin 30 dollar olmasında israr edir.

■ **Polşa öz hərəkətləri ilə Rusiyadan neftin marjinal qiymətlərinin saxlanılması prosesini bilərəkdən ləngidə bilər. Bu barədə Milli Enerji Təhlükəsizliyi Fondunun (FNEB) aparıcı analitiki İqor Yuşkov məlumat verib.**

"Polşa başa düşür ki, Aİ-nin digər üzvləri üçün bununla razılaşmaq çətin və ya qeyri-mümkün olacaq. Bu, Polşanın bilərəkdən danışıqları pozmaq istədiyi versiyasını doğurur. Bir sıra KİV-lər yazır ki, guya Polşa ABŞ-la qarşıdurmaya girir. Mən sadəcə hesab edirəm ki, onlar ABŞ-ın maraqlarından çıxış edirlər", - Yuşkov bildirib.

Onun sözlərinə görə, ABŞ bazarı sakitləşdirmək üçün dəfələrlə könüllü olub, ona görə də dekabrın 5-dən iki növ sanksiyalar fəaliyyətə başlayacaq. Bunlardan biri neftin dəniz yolu ilə tədarükünə embarqo, digəri isə qiymət tavanıdır. Buna görə də, eyni vaxtda məhdudiyyətlərin tətbiqi ilə bazarı şoka salmamaq üçün ABŞ bu sanksiyalar növlərini vaxta görə ayırmağı təklif edib. Məhz bu mənada Polşa prosesi gecikdirməyə cəhd edə bilər. O əlavə edib ki, Avropa İttifaqında müzakirələr ona görə yaranır ki, demək olar ki, istənilən halda bazarda problemlər yarana bilər, istər yüksək, istərsə də aşağı qiymət tavanı. Bundan əlavə, Avropada bir sıra şirkətlər sadəcə olaraq bizneslərinin bir hissəsini itirmək istəmirlər, bu isə o deməkdir ki, qiymət tavanı daha yüksək səviyyədə müəyyən edilə bilər.

Göründüyü qarşıdakı ildə neft bazarında çaxnaşmalar olacağı qaçılmazdır. Bunun neft qiymətlərinə nə dərəcədə təsir göstərəəyi, qiymətlərin azalan, yaxud yüksələn xətlə inkişaf edəcəyini isə indidən proqnozlaşdırmaq sadəcə mümkün deyil. Çünki indiki məqamda neft qiymətlərini müəyyənləşdirən iqtisadi yox, daha çox siyasi amillərdir.

***Azad Əliyev***

# "Urmu gölünün harayı"

***Bakıda "Urmu gölünün harayı" adlı dəyirmi masa keçirilib. Toplantıda Təbriz əsilli və hazırda Fransada yaşayan azərbaycanlı tədqiqatçı, İran azərbaycanlılarının insan hüquqları müdafiəçisi, "Ərk" İnsan Haqları Komitəsinin sədri Jalə Təbrizli, Güney Azərbaycan milli hərəkatı üzrə ekspert, "Ərk" İnsan Haqları Komitəsinin həmtəsisçisi Maşallah Rəzmi, yerli ekspert və akademik icmasının nümayəndələri iştirak ediblər.***



## Aktual

Tədbirdə Güney Azərbaycanda baş verən ekoloji, etnik və mədəni diskriminasiyaya qarşı fəaliyyət istiqamətlərinə dair müzakirələr aparılıb.

■ **Dəyirmi masada çıxış edən Jalə Təbrizli vurğulayıb ki, Urmiya gölünün qurudulması azərbaycanlılara qarşı ayrı-seçkilikdir.** O bildirib ki, BMT-də, UNESCO-da Urmiyə gölünün qurumasının qarşısının alınması üçün vəsait ayrılmasına dair məsələ qaldırıblar. "İran həmin vəsaiti özü üçün xərclədi. Ancaq gölün quruması üçün heç bir vəsait xərcləmədi. Urmiya gölünün quruması Azərbaycana qarşı ayrı-seçkilikdir. İranda bir nəfər yoxdur ki, desin ki, mən buna görə məsuliyyət daşıyıram. Hazırda gölün 95 faizi quruyub. Urmiya gölünün ətrafında yaşayan 14 milyon insan oradan köçürülməlidir. Çünki orada xəstəliklər yayılır". Təbrizli hüquq müdafiəçisi İranda türk qadınların zülm gördüyünü, uşaqların ana dilində təhsil ala bilmədiyini xüsusi qeyd edib. "İranda bizim qadınlarımız uzun müddətdir ki, zülmə məruz qalırlar. Oradakı İslam rejimi qadın haqlarını tanınmır. Qadına kişinin yarısı kimi münasibət göstərilir. Baş örtüyü məcburidir. Xüsusən də türk olan qadınlar zülm görür. Həm qadın, həm də türk olduqları üçün irqi ayrı-seçkiliyə məruz qalırlar. Bundan başqa, uşaqlarımız ana dilində təhsil ala bilmir. Hər uşaq məktəbə gedəndə sevinər, amma bizim uşaqlarımız ağlayırlar. Çünki müəllimin dilini bilmirlər. Bu səbəbdən də çoxları savadsız qalır".

■ **Maşallah Rəzmi isə çıxışı zamanı qeyd edib ki, İranda bizim tariximizi təhrif edirlər, ayrı cür yazırlar.**

Onun sözlərinə görə, bu gün Urmiya gölündə ekoloji fəlakət yaşanır.

"Urmiya gölünün Azərbaycana həyati yaşam mənası var. Bu gölün ətrafında 14 milyon insan yaşayır. Hazırda gölün 95 faizi qoruyub. Keçmişdə həmin göl vasitəsilə yüklər daşınırdı".

Güneyli hüquq müdafiəçisi Təbrizin iqtisadi durumunun pisləşdiyini də bildirib. "Qeyd edim ki, Pəhləvi dövründə, İslam inqilabına qədər Təbriz ölkədə 5-ci yerdə indi. Ancaq indi Təbriz ölkədə iqtisadi durumuna görə 11-ci şəhərdir.100 ildə Təbrizi 11-ci sıraya salıblar. Təbriz yaxınlığında "Əndəryan" qızıl mədəni yerləşir. Bu, Yaxın Şərqdə ən böyük qızıl mədənidir. İran Rusiya ilə müqaviləyə bağlayaraq bu yatağı istismar edir. Ordan nə qədər qızıl çıxarıldığı və hara getdiyi haqda xalqa hesabat verilmir. İkinci bir yataq "Süngün" mis mədənidir. Bu da ikinci ən böyük mis mədənidir. Burdan çıxarılan mis ya Kirmana aparılır, ya da Çinə ixrac edilir. Sərvətlərimiz talanır və xalqa heç bir açıqlama verilmir".

***Sabir***

# "Nar" NETTY 2022 milli internet mükafatının əsas tərəfdaşıdır

Ⓡ

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişafına töhfə vermək məqsədilə mobil operator "Nar" bu il də NETTY milli internet mükafatına dəstək olur.**

Mükafatın münsifləri hər il Azərbaycanın ən yaxşı İT layihələrini, mühüm veb-resursları və informasiya texnologiyaları sahəsində peşəkarları müəyyən edib mükafatlandırır. Müsabiqədən iştirak etmək istəyənlər hər birində 3 alt kateqoriya olan 7 nominasiya üzrə ərizələrini təqdim edə bilərlər.

Bu ilki nominasiyalar "Dövlət və cəmiyyət", "İqtisadiyyat və Biznes", "Maliyyə və banklar", "Elm, Təhsil və İnnovasiyalar", "Səhiyyə, İdman və Turizm", "İnformasiya və Xəbərlər" və "Mədəniyyət, İncəsənət və Yaradıcılıq" olaraq müəyyən edilib. İştirak üçün müraciət <netty.az/az/registration> saytında, onlayn qaydada qeydə alınır. İştirak ərizələrinin qəbulu üçün son gün 30 noyabr tarixidir.

Qeyd edək ki, müsabiqə "Nar"-ın əsas tərəfdaşlığı ilə keçirilir. "Nar" özünün çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanda yerli İT sahəsinin inkişafına və müxtəlif yenilikçi layihələrin tətbiqinə dəstək olur.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Kənddən Şəhərə" yarmarkalarının keçiriləcəyi vaxt məlum olub

**3-4 dekabr tarixlərində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Bakı və Abşeronda "Kənddən Şəhərə" yarmarkaları keçiriləcək. Yarmarkalarda yerli kənd təsərrüfatı və qida məhsulları birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq. Nazirlikdən hafta.az-a verilən məlumata görə, "Kənddən Şəhərə" həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.**



Fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.Budəfəki "Kənddən Şəhərə" həftəsonu yarmarkalarında ümumilikdə 40-dan artıq regiondan 80-ə yaxın fermer iştirak edəcək.

Fermerlər 80-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar. Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

"Kənddən şəhərə" həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yaxınlığı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# DÇ-2022: Fransadan gözlənilməz məğlubiyyət, Danimarkadan vida

**Qətərdə keçirilən DÇ-2022-nin daha bir qrupunda mübarizəyə yekun vurulub. Apasport.az saytının məlumatına görə, mundialın 11-ci gününün ilk iki oyunu D qrupunda baş tutub. Son dünya çempionu Fransa Tunislə qarşılaşacaq. 1/8 finala vəsiqəni təmin edən Didye Deşamın yetirmələri bu qarşılaşmada da favorit idi.**




Qrupdan çıxmaq üçün yalnız nəzəri şanslara malik afrikalılar isə arzularını reallaşdıra bilməyiblər. Tunis yığması qələbəyə baxmayaraq qrupda qalıb. Buna səbəb qrupun digər oyununda Avstraliya millisinin Danimarkanı məğlub etməsidir. "Yaşıl qitə" təmsilçisi Fransanın ardından qrup ikincisi 1/8 finala yüksəlib.

## HƏFTƏ REYTİNQ

### Həftənin SUALI



Belarus Prezidenti Aleksandr Lukaşenkonun İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyana verdiyi sualı gündəm olub. Lukaşenko Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Kollektiv Təhlükəsizlik Şurasının iclasına gələrkən "Niyə belə tutqunsan?" sualını verib. Paşinyan isə sualı cavablandırmaqdan yayınıb.

### Həftənin ÇAĞIRIŞI



Vardanyanın dünya ermənilərinə nümunəyə çevrilməsi təhlükəlidir. Bu fkirləri millət vəkili Zahid Oruc deyib. "Lakin bizi xaricdə yaşayan milli iş adamlarımızın azad torpaqlara humanitar yardım deyil, öz biznes maraqlarına sərmaye qoymaması da narahat etməlidir. Azərbaycanlı milyonçular da xarici vətəndaşlıqlarını Qarabağ üçün qurban verərdilərmi? Vardanyanla müqayisə və yarış naminə deyil, azad ərazilərə investisiya qoyub qazanmaqdan ötrü onlar qayıdışa hazırdılarmı?" - deyə o soruşub.

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin Sərəncamı ilə Vüqar Əliheydər oğlu Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri təyin edilib. Vüqar Əliyev 1980-ci ildə Bakıda anadan olub.

O, Azərbaycan Dillər Universitetini bitirib. İkinci ali təhsilini isə Moskva Dövlət Linqvistika Universitetində jurnalistika ixtisası üzrə alıb. O bu vəzifəyə təyin olunana qədər AZƏRTAC-da bölmə müdiri kimi, daha sonra isə Prezident Administrasiyasında məsul vəzifədə çalışıb. Vüqar Əliyev ailəlidir, üç övladı var.

### Həftənin SƏHVİ



"Rusiyanın Ukraynaya qarşı apardığı müharibə, çox güman, hansısa mərhələdə danışıqlar masası arxasında başa çatacaq". Bunu NATO-nun Baş katibi Yens Stoltenberq deyib. Onun sözlərinə görə, lakin bu danışıqların gedişatı və nəticəsi tamamilə döyüş meydanındakı vəziyyətdən asılıdır: "Döyüş meydanında isə təkcə son ay ərzində Putinin Ukrayna xalqının, onun ordusunun və siyasi rəhbərliyinin gücünü lazımi qədər qiymətləndirməyərək böyük strateji səhvə yol verdiyini gördük".

### Həftənin DUELİ



ABŞ yığması DÇ-nin qrup mərhələsinin 3-cü turunda İranı 1:0 hesabı ilə məğlub edərək növbəti mərhələyə adlayıb. Qeyd edək ki, 1998-ci ildə Fransada keçirilən dünya çempionatında İran və ABŞ üz-üzə gəlmişdi. Həmin vaxt İran ABŞ-ı 2:1 udaraq qrupda saxlamışdı.

### Həftənin ARZUSU



Türkiyəli müğənni Yılmaz Morgül aktrisa Hande Erçellə evlənmək istəyir. Müğənni bu etirafı qatıldığı proqramların birində dilə gətirib. "1997-ci ildə məşhur olanda Hande Erçel böyük olsaydı, mütləq onunla evlənmək istəyərdim. Mənə "hə" desə də, deməsə də. Onu ailə qızı kimi görürəm. Dünyanın ən şirin qadını Hande Erçeldir. Onu çox sevirəm, onu sevənləri də sevirəm",-deyə müğənni vurğulayıb. Qeyd edək ki, Hande Erçelin 29, Yılmaz Morgülün isə 58 yaşı var.

### Həftənin ƏN DƏBLİSİ



Dünyanın ən dəbli xanımı məlum olub. Britaniyanın "GQ" jurnalı fələstinli model Bella Hadidi seçib. O, geyimlərinin zövqlü seçiminə görə ən dəbli xanım adını qazanıb.

***Azad Əliyev***

## GÜNÜN FOTOSU



Sabiq nazirlər 20 il əvvəl...

# "Gender bərabərliyinə yeni töhfə

**Musa Quliyev,**
Milli Məclisin deputatı

Bu sənədlə Azərbaycanda 674 adda peşədə qadınların əməyinə qoyulan qadağa ləğv edilir.

▸▸ Səh. 4

## STATİSTİKA




■ **2022-ci ilin yanvar-oktyabr aylarında əcnəbilər bank kartları vasitəsi ilə 1 806,7 mln. manatlıq əməliyyat aparıblar, bu da illik müqayisədə 87,7% artım deməkdir.**

2022-ci ilin oktyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 149 mln. manat təşkil edib, bu illik müqayisədə 19,8% çoxdur.



▸▸ Səh. 7

# Rus bölməsində Azərbaycan dilində tədris